# TAM ORTA (11 İLLİK) TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ 6 APREL 2025-Cİ İL TARİXİNDƏ KEÇİRİLƏN BURAXILIŞ (ALI TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANININ 1-Cİ MƏRHƏLƏSİ) İMTAHANINDA İSTİFADƏ EDİLƏN TAPŞIRIQLARIN İZAHI (A VARİANTI)

## English

***Listen to the passage and answer questions 1 – 6.***

Bali is a small island located in the country of Indonesia. Indonesian culture is one of the most lively cultures in the world. The Balinese are fond of dance, music and theater. Bali Arts Festival is held every year from middle of June to middle of July in Denpasar. The aim of the Bali Arts Festival is to protect and promote Balinese cultural values. Many towns are decorated with traditional bamboo and coconut decorations to celebrate this festival. During the festival tourists and Balinese admire the richness of the performing arts of Bali through parades, musical and dance performances. The festival starts with the famous opening parade. The parade brings more than 1,000 artists together who show their works and talents by performing different artistic performances. The artists in the festival come not only from Bali but also from different countries such as China and India. Beside the parade, various competitions are held in this festival, such as literature competition, painting and traditional dance performances.

**1.** Which statement is ***false*** according to the passage?

A) The artists in the festival show their works and talents.
B) The artists in the festival come not only from Bali but also from different countries.
C) The aim of the Bali Arts Festival is to protect Indian culture.
D) The Balinese are fond of dance, music and theatre.
E) Various competitions are held in the Bali Arts Festival.

**Alt-standart:** 10-1.1.2. Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır.

***İzah:*** *Bu test tapşırığı dinləmə mətninə aiddir və mətnin məzmununa əsasən* ***səhv*** *fikri seçmək tələb olunur. Verilən fikirlərdən* ***"The artists in the festival show their works and talents", "The artists in the festival come not only from Bali but also from different countries", "The Balinese are fond of dance, music and theatre", "Various competitions are held in the Bali Arts Festival"*** *doğru fikirlərdir.* ***"The aim of the Bali Arts Festival is to protect Indian culture."*** *fikri mətnə əsasən yanlışdır, çünki Bali incəsənət festivalının məqsədi Bali mədəni dəyərlərini qorumaq və tanıtmaqdır. Buna görə də* ***"The aim of the Bali Arts Festival is to protect Indian culture."*** *bəndi test tapşırığının* ***doğru cavabıdır***.

**2.** The passage is mainly about ... .

A) the richness of Bali painting
B) a celebration on the small island
C) traditional dance performers
D) a group of islands in Indonesia
E) the history of Indonesian culture

**Alt-standart**: 7-1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyən edir.

**İzah**: *Bu test tapşırığında mətndə əsasən nədən bəhs olunduğu soruşulur. Bəndlərdə verilmiş* ***"the richness of Bali painting", "traditional dance performers", "the history of Indonesian culture"*** *və* ***"a group of islands in Indonesia"*** *fikirləri haqqında məlumat verilmir. Beləliklə, test tapşırığının* ***doğru cavabı "a celebration on the small island"*** *olan bənddir.*

**3.** Complete the sentence according to the passage.
*The Bali Arts Festival ... .*

A) is celebrated in different parts of the world
B) is about tourist destinations in China
C) is held from middle of June to middle of July
D) is a festival for the artists who sell their paintings
E) begins with literature competition

**Alt-standart:** 10-1.1.2. Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Mətnə əsasən cümləni düzgün tamamlamaq tələb olunur. Verilmiş* ***"The Bali Arts Festival"*** *ifadəsini mətndəki* ***"The Bali Art Festival is held every year from middle of June to middle of July."*** *cümləsinə əsasən* ***"is held from middle of June to middle of July"*** *ifadəsi tamamlayır. Beləliklə, test tapşırığının* ***doğru cavabı "is held from middle of June to middle of July"*** *olan bənddir.*

***Fulfil the tasks number 4 – 6 in the "Answer sheets".***

**4.** Write the correct answer to the question according to the passage.
*What does the Bali Arts Festival start with?*

**Alt-standart:** 6-1.1.1. Müraciətlər zamanı sualları cavablandırır.

**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş suala mətnə əsasən cavab yazmaq tələb olunur. Verilmiş sualın doğru cavabı* ***"The festival starts with the famous opening parade"*** *cümləsində verilmişdir. Beləliklə, test tapşırığının* ***doğru cavabı "the famous opening parade"*** *ifadəsidir.*

**5.** Complete the sentence according to the passage.
*Many towns are decorated with traditional bamboo and coconut decorations to ... .*

**Alt-standart:** 7-1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir.

***İzah:*** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş cümləni dinləmə mətninə əsasən tamamlamaq*

*tələb olunur. Mətndə verilən* ***"Many towns are decorated with traditional bamboo and coconut decorations to celebrate this festival"*** *fikrinə uyğun olaraq, verilmiş cümləni* ***"to celebrate this festival"*** *ilə* ***doğru*** *şəkildə tamamlamaq olar.*

**6.** Write one adjective from the passage that describes the word "*values*".
**Alt-standart:** 7-1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir.
**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş* ***"values"*** *ismini təsvir edən sifəti yazmaq tələb olunur. Mətndə verilmiş* ***The aim of the Bali Arts Festival is to protect Balinese cultural values"*** *cümləsinə əsasən test tapşırığının* ***doğru cavabı*** *"****cultural****" sifətidir.*

**7.** Choose the correct option.
*My sister wanted me … the meal quickly.*
A) is cooking B) cook C) will cook
D) cooks E) to cook
**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Feilin şəxssiz formaları. Mürəkkəb tamamlıq
*Bu test tapşırığında verilmiş cümləni feilin müvafiq forması ilə tamamlamaq tələb olunur. Cümlədə olan* ***"to want"*** *feilindən sonra mürəkkəb tamamlığın II hissəsi "****to****" hissəcikli məsdər olmalıdır. Buna görə də test tapşırığının* ***doğru cavabı "to cook"*** *feili olan bənddir.*

**8.** Choose the correct option.
*We usually go by … train, but today we're taking … bus.*
A) a, – B) the, – C) a, the
D) the, a E) –, the
**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Artikl
**İzah:** *Bu test tapşırığında verilmiş cümləni müvafiq artikllarla tamamlamaq tələb olunur. Artiklın işlənmə qaydasına görə "****by****" sözönü nəqliyyat vasitələri ilə birbaşa artiklsız işlənir. Cümlənin ikinci hissəsində isə nəqliyyat vasitələri artiklla (a/an/the) işləndiyi üçün test tapşırığının* ***doğru cavabı "–, the"*** *olan bənddir.*

**9.** Choose the correct option.
*The teacher asked us … questions.*
1. many
2. much
3. a little
4. a few
A) 1, 2 B) 1, 4 C) 1, 3 D) 2, 3 E) 3, 4
**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Kəmiyyət bildirən sözlər
**İzah:** *Bu test tapşırığında verilən ismə müvafiq olan kəmiyyət bildirən sözləri müəyyən edib tamamlamaq tələb olunur.* ***"Questions"*** *sayılan cəm isim olduğu üçün* ***"much"*** *və* ***"a little"*** *ilə işlənə bilməz.* ***"Few", "many"*** *sayılan cəm isimlərlə işləndiyi üçün test tapşırığının* ***doğru cavabı*** *hesab edilir.*

**10.** Choose the correct option.
*The climate … warm here.*
A) were B) is C) weren't D) are E) aren't
**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Xəbərin mübtəda ilə uzlaşması
**İzah:** *Bu test tapşırığında verilmiş cümlədə mübtəda ilə xəbərin düzgün uzlaşmasını seçmək tələb olunur. Cümlənin mübtədası* ***"The climate"*** *təkdə olan isim olduğu üçün təkdə olan xəbər tələb edir.* ***"Were", "weren't", "are"*** *və* ***"aren't"*** *feilləri cəmdə olduğu üçün yanlışdır. Beləliklə,* ***"is"*** *feilin tək formasında olduğu üçün* ***doğru cavab*** *hesab edilir.*

**11.** Choose the correct option.
*He gave me … phone number and I gave him … .*
A) hers, our
B) his, mine
C) yours, his
D) their, your
E) hers, my
**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Əvəzlik
**İzah:** *Bu test tapşırığında verilmiş cümlədə boşluğu müvafiq əvəzliklərlə tamamlamaq tələb olunur. Verilmiş tapşırıqda ilk hissədə asılı yiyəlik əvəzliyi, ikinci hissədə isə müstəqil yiyəlik əvəzliyi tələb olunur. Buna görə də ilk hissədə verilmiş* ***"hers"*** *və* ***"theirs"*** *əvəzlikləri yanlış cavab hesab edilir. Eləcə də ikinci hissədə verilmiş* ***"our", "your"*** *və* ***"my"*** *əvəzlikləri olan bəndlər də yanlışdır. Buna görə də* ***doğru cavab "his", "mine"*** *olan bənddir.*

**12.** Make up a sentence.
1. was
2. when
3. it
4. snowing
5. arrived
6. the guests
A) 2, 6, 5, 4, 3, 1
B) 3, 1, 4, 5, 2, 6
C) 1, 3, 5, 2, 6, 4
D) 3, 1, 4, 2, 6, 5
E) 1, 4, 3, 2, 5, 6
**Alt-standart:** 5-4.1.1. Verilmiş sözləri məna və qrammatik cəhətdən əlaqələndirərək cümlələr qurur.
**Bölmə:** Cümlədüzəltmə
**İzah:** *Bu test tapşırığında verilmiş sözləri müvafiq ardıcıllıqla düzməklə cümlə qurmaq tələb olunur. Verilmiş sözlərin doğru ardıcıllığı* ***3, 1, 4, 2, 6, 5 (It was snowing when the guests arrived.)*** *kimidir və bu ardıcıllıq olan bənd test tapşırığının* ***doğru cavabıdır****.*

**13.** Choose the correct option.
*The museum is far … our office. If you go there … foot, it'll take you half an hour.*
A) to, on B) near, in C) from, on
D) –, at E) by, with
**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Sözönü
**İzah**: *Bu test tapşırığında verilmiş cümlələrdə buraxılmış sözönüləri əlavə etməklə cümlələri tamamlamaq tələb olunur. Verilən cümlələrdə* ***"far"*** *sözü* ***"from"*** *sözönü ilə,* ***"foot"*** *isə* ***"on"*** *sözönü ilə işləndiyi üçün* ***doğru cavab "from, on"*** *sözönüləri olan bənddir.*

**14.** Choose the correct Passive Voice version of the sentence.

*They picked up bananas in the forest.*

A) Bananas were picked up in the forest.
B) Bananas were been picked up by them.
C) Bananas are picked up in the forest.
D) Bananas will be picked up by them.
E) They have picked up bananas in the forest.

**Alt-standart:** 9-4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır.
**Bölmə:** Məchul növ
**İzah:** *Bu test tapşırığında verilmiş nəqli cümlənin məchul növdə düzgün versiyasını müəyyən etmək tələb olunur. Məlum növdə olan cümlə keçmiş sadə zamanda olduğu üçün* ***"Bananas were picked up in the forest"*** *cümləsinin qeyd olunduğu bənd* ***doğru cavabdır.***

**15.** Choose the correct pair of synonyms.

A) simple-hard
B) early-late
C) dangerous-harmless
D) anxious-worried
E) rude-polite

**Alt-standart:** 8- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir
**Bölmə:** Sözün leksik mənasının izahı, sözün mənası
**İzah:** *Bu test tapşırığında verilmiş* ***"simple-hard"*** *(asan-çətin),* ***"early-late"****(erkən-gec)* ***"rude-polite"*** *(kobud-nəzakətli) sözləri antonimdir.* ***"dangerous-harmless"*** *(təhlükəli-zərərsiz) sözləri isə müxtəlif mənalı sözlərdir.* ***"anxious-worried"*** *(narahat) sözləri isə sinonim sözlərdir. Beləliklə, test tapşırığının* ***doğru cavabı "anxious-worried"*** *sözləri olan bənddir.*

**16.** Choose the correct tense form.

*My family ... a barbecue yesterday.*

A) had B) has C) is having
D) has had E) have

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Feilin zaman formaları
**İzah:** *Bu test tapşırığında feilin düzgün zaman formasını müəyyən etmək tələb olunur. Burada verilmiş sadə cümlənin sonunda "****yesterday****" zaman zərfi feilin* ***"Past Simple"*** *(keçmiş sadə zaman) zaman formasını tələb etdiyi üçün* ***"has"****,* ***"is having"****,* ***"has had"*** *və* ***"have"*** *cavabları yanlışdır. Keçmiş sadə zaman formasında olan "****had****" feilinin qeyd olunduğu bənd* ***test tapşırığının doğru cavabıdır.***

**17.** Choose the correct conjunction.

*You should stay at home ... you are ill.*

A) though
B) although
C) or
D) because
E) and

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Bağlayıcı
**İzah**: *Bu test tapşırığında cümləni müvafiq bağlayıcı ilə tamamlamaq tələb olunur.* ***"Though"****,* ***"although"****,* ***"or"****, "****and****" bağlayıcıları məntiqi cəhətdən test tapşırığının doğru cavabı deyildir. Beləliklə, test tapşırığının* ***doğru cavabı "because"*** *bağlayıcısı olan bənddir.*

**18.** Choose the correct modal verbs.

*I want to know the truth. You ... lie to me.*

1. haven't to
2. aren't able
3. mustn't
4. shouldn't

A) 3, 4 B) 1, 4 C) 1, 2 D) 2, 4 E) 2, 3

**Alt-standart:** 6- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir.
**Bölmə:** Feil. Modal feillər
**İzah:** *Bu test tapşırığında verilmiş cümləni müvafiq modal feil ilə tamamlamaq tələb olunur. Bəndlərdə verilən* ***"aren't able"*** *modal ifadəsi özündən sonra "****to****" hissəcikli məsdər tələb etdiyinə görə doğru cavab ola bilməz,* ***"haven't to"*** *ifadəsi qrammatik cəhətdən doğru olmadığı üçün yanlış cavabdır.* ***"Mustn't*** *və* ***shouldn't"*** *verilmiş cümləyə həm qrammatik, həm də məntiqi cəhətdən uyğun gəldiyi üçün test tapşırığının* ***doğru cavabıdır.***

**19.** Choose the correct option.

*Those flowers look ... than these ones.*

A) the best
B) best
C) better
D) good
E) the most good

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Sifət
**İzah**: *Bu test tapşırığında verilmiş cümləni tamamlamaq üçün müvafiq sifəti seçmək tələb olunur. Bu cümlədə* ***"than"*** *bağlayıcısı sifətin müqayisə dərəcəsini tələb edir. Buna görə də adi və üstünlük dərəcələrində olan* ***"good"****,* ***"the best"****,* ***"best"*** *sifətləri səhv cavablar hesab edilir. Eləcə də* ***"the most good"*** *ifadəsi qrammatik cəhətdən doğru olmadığı üçün yanlış bənd hesab edilir.* ***"Better"*** *sözü müqayisə dərəcəsində olduğu üçün bu bənddə sualın* ***doğru cavabıdır.***

**20.** Choose the correct option.

*... phoned you last night?*

A) Whose B) Why C) How
D) Whom E) Who

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Sual cümlələri
**İzah:** *Verilən test tapşırığında düzgün sual əvəzliyini müəyyən edib cümləni tamamlamaq tələb olunur.*
***"Whose"*** *sual əvəzliyi özündən sonra isim tələb edir. Sual cümlələrində söz sırası qaydasına əsasən* ***"why"****,* ***"how"*** *və* ***"whom"*** ***sual*** *əvəzliklərindən sonra köməkçi feil gəlməlidir. Nümunədə boşluqdan sonra xəbər gəldiyi üçün sual əvəzliyi ilə ifadə olunmuş mübtəda tələb olunur. Buna görə də* ***doğru cavab "who"*** *sual əvəzliyinin verildiyi bənddir.*

**21.** Choose the pair of nouns in the singular.

A) weather, face
B) months, year
C) feet, toe
D) ears, mouth
E) room, days

**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** İsim
***İzah:*** *Bu test tapşırığında təkdə verilmiş isimlərin olduğu bəndi seçmək tələb olunur.* ***"Months", "feet", "ears" və "days"*** *sözlərinin hər biri cəmdə olduğu üçün bu sözlərin olduğu bəndlər doğru deyildir. Ona görə də test tapşırığının* ***doğru cavabı*** *təkdə olan isimlərin qeyd edildiyi* ***"weather, face"*** *isimlərinin qeyd olunduğu bənddir.*

**22.** Choose the correct exclamatory sentence.
A) How intelligent the students are they!
B) How intelligent students are they!
C) What intelligent the students are!
D) What intelligent students they are!
E) What an intelligent students are!

**Alt-standart:** 9-4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır.
**Bölmə:** Nida cümlələri
**İzah:** *Bu test tapşırığında doğru nida cümləsini seçmək tələb olunur. Bildiyimiz kimi,* ***"what"*** *sözü ilə başlayan nida cümlələrində söz sırası belə olur:* ***"what + (a, an) + sifət + isim + mübtəda + xəbər." "How"*** *ilə başlayan nida cümlələrində isə söz sırası:* ***"How + sifət (və ya zərf) + (the) mübtəda + xəbər"*** *şəklində olur. Odur ki,* ***"What intelligent the students are!", "What an intelligent students are!", "How intelligent the students are they!"*** *və* ***"How intelligent students are they!"*** *cümlələrinin qeyd olunduğu bəndlər səhv cavablardır. Çünki bu nida cümlələrində söz sırası doğru deyil. Beləliklə, verilmiş cümlələrdən* ***"What intelligent students they are!"*** *cümləsinin qeyd olunduğu bənd test tapşırığının* ***doğru cavabıdır.***

***Read the passage and answer questions 23 – 30.***

1. Tasmania, the smallest island state of Australia, is home to about half a million people. Most of the people live in the southeast and the north. Hobart, the capital of the state, is the largest city and the main port. Tasmania was discovered by the Dutch explorer Abel Tasman in 1642. He called the island "Van Diemen's Land" in honour of a governor-general. At that time, several thousand people were living on the island.

2. The British founded the first colony on this island in 1803. Many of the Europeans living here were immigrants from Great Britain. Later, a number of conflicts between the Europeans and the native people started and led to the Black Wars. When those wars ended, there were no native people left on the island and it was governed by the Europeans. So the number of the Europeans increased largely on the island. In 1856 those Europeans formed their own government, renamed this island and called it Tasmania after the name of its explorer Tasman. A few years later, Tasmania became a state of Australia.

3. Today, the Tasmanians work in service industries, such as communications, IT, and tourism. Beside this, they are also good at producing a lot of goods which play a key role in the economy of the state.

**23.** Complete the sentence according to the passage.
*The people on the island … .*
1. created a state in Great Britain
2. changed the name of the island
3. mainly live in the southeast and the north
4. avoid working in the fields like IT and tourism

A) 1, 3 B) 2, 3 C) 1, 4 D) 3, 4 E) 1, 2

**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir. Mətnə əsasən cümləni düzgün tamamlamaq tələb olunur. Verilmiş yarımçıq cümləni tamamlamaq üçün mətnin müvafiq olaraq I və II abzasında verilən cümlələrə nəzər yetirmək lazımdır:* ***"Most of the people live in the southeast and the north."*** *və* ***"In 1856 those Europeans formed their own government, renamed this island and called it Tasmania after the name of its explorer Tasman."*** *Beləliklə,* ***"changed the name of the island"*** *və* ***"mainly live in the southeast and the north"*** *ifadələri* ***"The people on the island"*** *mübtədası ilə başlanan cümləni məntiqi cəhətdən düzgün tamamladığı üçün test tapşırığının* ***doğru cavablarıdır.***

**24.** Which statements are true according to the passage?
1. The first colony in Tasmania was established by the Dutch.
2. The native people were involved in the government after the Black Wars.
3. Most of the Europeans on the island were immigrants from Great Britain.
4. The island has been populated by half a million people.

A) 3, 4 B) 2, 4 C) 1, 3 D) 1, 2 E) 2, 3

**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və mətnə əsasən düzgün fikirləri seçmək tələb olunur. Mətnə əsasən* ***"The first colony in Tasmania was established by the Dutch.", "The native people were involved in the government after the Black Wars."*** *yanlış fikri ifadə etdiyi üçün yanlış bəndlərdir.* ***"Most of the Europeans on the island were immigrants from Great Britain.", "The island has been populated by half a million people."*** *fikirləri isə müvafiq olaraq mətnin 2-ci və 1-ci abzaslarında* ***("Today, the Tasmanians work in service industries, such as communications, IT, and tourism."*** *və* ***"Australia, is home to about half a million people.")*** *öz əksini tapdığına görə test tapşırığının* ***doğru cavablarıdır.***

**25.** Choose the correct answer to the question according to the passage.
*What was the result of the Black Wars?*
A) The Europeans took control of the island.
B) The Europeans let the native people choose their government.
C) The number of the Europeans decreased in Tasmania.
D) The Europeans left the island of Tasmania.
E) The Europeans and native people started to live together.

**Alt-standart:** 5-3.1.4. Mətnin məzmununa uyğun suallara cavab verir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir. Mətnə əsasən verilmiş suala düzgün cavabı əks etdirən bəndi müəyyənləşdirmək tələb olunur.* ***"The Europeans let the native people choose their government.", "The number of the Europeans decreased in Tasmania.", "The Europeans left the island of Tasmania.", "The Europeans and native people started to live together."*** *cümlələri mətnə əsasən sualın doğru cavabları olmadığı üçün yanlış bəndlər hesab edilir. Mətndə verilən* ***"When those wars ended, there were no native people left on the island and it was governed by the Europeans."*** *cümləsinə əsasən* ***"The Europeans took control of the island"*** *cümləsi olan bənd test tapşırığının* ***doğru cavabıdır.***

**26.** The passage is mainly about … .

A) the main port of Tasmania
B) a state named after its discoverer
C) a well-known British explorer
D) the industry of the island state
E) the largest city in Australia

**Alt-standart:** 7-3.1.4. Mətndəki əsas fikri müəyyən edir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və mətnin əsasən nədən bəhs etdiyi soruşulur. Verilmiş bəndlərdən* ***"the main port of Tasmania" , "a well-known British explorer", "the industry of the island state", "the largest city in Australia"*** *fikirləri mətndə müəyyən dərəcədə verilsə də, mətnin məzmununu tam əks etdirmədiyi üçün yanlış cavablardır. Mətndə, əsasən,* ***Avstraliyanın kiçik ştatı olan Tasmaniyadan*** *bəhs edildiyi üçün test tapşırığının* ***doğru cavabı "a state named after its discoverer"*** olan bənddir.

***Fulfil the tasks number 27 – 30 in the "Answer sheets".***

**27.** Which word from paragraph 1 best fits the following definition "*to find or learn something for the first time*"?

**Alt-standart:** 6-3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada verilmiş leksik izaha uyğun olan sözü 1-ci abzasdan müəyyən edib yazmaq tələb olunur. Buna görə də mətnin 1-ci abzasına əsasən* ***doğru cavab "to discover" (kəşf etmək)*** *feilidir.*

**28.** Write the synonym of the word "*indigenous*" from paragraph 2.

**Alt-standart:** 6-3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada* ***"indigenous" (yerli)*** *sifətinin 2-ci abzasda sinonimini müəyyən edib yazmaq tələb olunur. Beləliklə, bu test tapşırığının* ***doğru cavabı "native" (yerli)*** *sifətidir.*

**29.** Complete the sentence by changing at least 2 words according to the passage.

*The Tasmanians are also good at … .*

**Alt-standart:** 8- 3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır; 9-3.1.4. Oxuduğu mətnin məzmununa münasibət bildirir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada verilmiş cümləni mətnə əsasən ən azı 2 söz dəyişməklə tamamlamaq tələb olunur. Verilmiş* ***"The Tasmanians are also good at... ."*** *cümləsini "producing* ***(manufacturing, making)*** *a lot of* ***(many, numerous, plenty of)*** *goods* ***(products, things)*** *which* ***(that)*** *play a key* ***(main, significant, essential)*** *role in the economy of the state" şəklində tamamlamaq mümkündür.*

**30.** Answer the question by expressing your opinion. Write at least three sentences.

*Which country in the world would you like to visit and why?*

**Alt-standart:** *7 – 4.1.2. Müxtəlif əşya və hadisələri təsvir edir. 9 – 4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır. 10 – 4.1.3. Cümlələri və abzasları düzgün əlaqələndirmək üçün bağlayıcı vasitələrdən istifadə edir. 11 – 3.1.4. Mətndəki fakt və hadisələri real həyatla əlaqələndirərək şərh edir.*

**İzah:** *Bu açıq tipli suala öz fikrini ifadə etməklə ən azı üç cümlə ilə cavab yazmaq tələb olunur. Cavab yazarkən birləşdirici vasitələrin köməyi ilə fikirləri əlaqəli və ardıcıl şəkildə ifadə etmək, fikirlər arasında məntiqi rabitəni təmin etmək, müxtəlif qrammatik forma və strukturlardan (sadə və mürəkkəb cümlələr) düzgün və yerində istifadə etməklə zaman uzlaşmasını gözləmək və mövzuya uyğun söz və söz birləşmələrindən yerində və düzgün şəkildə istifadə etmək tələb olunur. Bu suala nümunə cavab aşağıdakı kimi ola bilər:*

*I would like to go to Italy. It is a famous country in the world. It has a wonderful landscape which attracts numerous tourists. There are plenty of historical monuments with amazing styles. Italy is the birthplace of architecture.*

## Azərbaycan dili

**31.** Düzgün yazılmış sözləri müəyyən edin.

1. kotalizator
2. ipoteka
3. mesenat
4. kinomatoqrafiya
5. simfoniya

A) 1, 4, 5 B) 1, 3, 5 C) 2, 3, 5
D) 2, 3, 4 E) 1, 2, 4

***Mövzu:*** *Fonetika ( Orfoqrafiya )*
***Sinif:*** *5*
***Alt-standart:*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.
***İzah:*** "kotalizator" sözü səhv yazılıb. Düzgün forması "katalizator" olmalıdır."kinomatoqrafiya" sözü "kinematoqrafiya" şəklində yazılmalıdır. Digər üç söz isə ( ipoteka, mesenat, simfoniya ) düzgün yazılıb.
***Doğru cavab:*** 2, 3, 5

**32.** *"İkinci il qərarlaşdırdı ki, başqalarına başa salmaq üçün özü hələ daha artıq biliyə möhtacdır."* (M. İbrahimov) nümunəyə əsasən doğru fikirləri seçin.

1. Təsriflənməyən feil tərkib əmələ gətirmişdir.
2. Köməkçi nitq hissələrindən biri əsas nitq hissəsi ilə omonimdir.
3. Sifətlər ismin sualına cavab verir.
4. Təsriflənən feil xəbər şəklində, məlum növdədir.
5. Zaman zərfi müstəqil cümlə üzvü deyil.
6. Yönlük hal şəkilçili isim quruluşca düzəltmədir.

A) 2, 4, 6  B) 1, 2, 6  C) 1, 4, 6
D) 1, 3, 5  E) 3, 4, 5

***Mövzu:*** Morfoloji təhlil
***Sinif:*** 7
***Alt-standart:*** 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir**.**
4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir;
***İzah:*** *Cümlədə "başa salmaq"* frazeoloji birləşməsi *"başqalarına"* sözü ilə birləşərək tərkib əmələ gətirmişdir.
Təsriflənən feil *(qərarlaşdırdı)* xəbər şəklindədir. *( -dı$^4$ keçmiş zaman şəkilçisi olduğu üçün)*
*-dır$^4$* şəkilçisi feildən feil düzəltsə də, işi icra edən subyekt məlumdur. Bu səbəbdən də məlum növdədir.
Nümunədəki isim *(biliyə)*quruluşca düzəltmədir: "bil" sözün kökü, -ıq$^4$ feildən isim düzəldən şəkilçidir, -ə isə yönlük hal şəkilçisidir.
Digər cümlələrdə nümunə ilə bağlı doğru fikir yoxdur.
***Doğru cavab:*** 1,4,6

**33.** Nümunələrə əsasən uyğunluğu müəyyən edin.
1. Vahidin istəyi uşaqların bu gün şəhərə getməyi idi.
2. Bütün zəiflərin güclü, bütün güclülərin də bir zəif tərəfi var.
3. Onun bu sözünü eşidincə Rüstəm ayağa qalxdı.

a. Cümlə üzvlərindən mübtəda, zərflik, xəbər işlənib.
b. Ümumi şəxsli cümlədir, fikir hamıya aid edilir.
c. İşarə əvəzliyi təyinin ifadə vasitəsidir.
d. İkinci dərəcəli üzv işlənməyən sadə cümlədir.
e. Cümlənin xəbəri suala cavab vermir.

A) 1 – d; 2 – b, e; 3 – a  B) 1 – a; 2 – b; 3 – c
C) 1 – d; 2 – e; 3 – a  D) 1 – a; 2 – b, e; 3 – c
E) 1 – d; 2 – e; 3 – a, c

***Mövzu:*** *Sintaksis*
***Sinif:*** *8*
***Alt-standart:*** 4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.
***İzah:*** *Vahidin istəyi uşaqların bu gün şəhərə getməyi idi* cümləsində *Vahidin istəyi – mübtəda, uşaqların bu gün şəhərə getməyi idi* – xəbərdir.
*Bütün zəiflərin güclü, bütün güclülərin də bir zəif tərəfi var* cümləsinin xəbəri ( *var*) suala cavab vermədən cümlənin müstəqil xəbəri olur.
*Onun bu sözünü eşidincə Rüstəm ayağa qalxdı* cümləsində *Rüstəm* – mübtəda, *ayağa qalxdı* – xəbər, *onun bu sözünü eşidincə* - zərflikdir.
***Doğru cavab:*** 1-d; 2-e; 3-a

**34.** Nümunədə işlənmiş ara sözlə bağlı cədvəldəki uyğun fikirləri müəyyən edin.
*Sözün qısası, bu işləri sabah təhvil verməliyik.*

| ***Doğru fikirlərdir*** | ***Yanlış fikirlərdir*** |
|---|---|
| 1. "Əvvəla" ara sözü ilə sinonimlik yaradır. | 4. İfadə vasitəsi modal sözdür. |
| 2. Sıra bildirir. | 5. "Beləliklə" sözü ilə əvəz edilsə, cümlədə məna dəyişikliyi baş verməz. |
| 3. Kontekstə görə ismi birləşmə kimi də işlənə bilər. | 6. Özündən sonra cümlənin intonasiyasından asılı olaraq yalnız nida və sual işarəsindən istifadə edilə bilər. |

A) 1, 2, 6  B) 3, 4, 6  C) 1, 3, 5
D) 3, 4, 5  E) 2, 4, 6

***Mövzu:*** Ara söz
***Sinif:*** 8
***Alt-standart:*** 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.
4.1.2. Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.
***İzah:*** *Sözün qısası kontekstə görə ismi birləşmə kimi işlənə bilər* doğru fikirdir. ( *Sözün qısası daha gözəldir* cümləsində sözün qısası *nə?* sualına cavab verərək mübtəda olan ismi birləşmədir.)
*İfadə vasitəsi modal sözdür* fikri yanlışdır, çünki *sözün qısası* modal sözün heç bir məna növünə aid deyil.
*Özündən sonra cümlənin intonasiyasından asılı olaraq yalnız nida və sual işarəsindən istifadə edilə bilər* fikri yanlışdır, çünki cümlənin sonunda intonasiyadan asılı olaraq nöqtə, sual, nida qoyula bilər.
***Doğru cavab:*** 3,4,6

**35.** "*Gəlin darandı, körpəsi ilə qucaqlaşdı, uşağın hərəkətləri onu güldürdü*" cümləsində feilin hansı qrammatik məna növlərinə aid nümunələr var?
A) qayıdış, qarşılıq-birgəlik, məlum
B) qayıdış, şəxssiz, məlum
C) məchul, qarşılıq-birgəlik, icbar
D) şəxssiz, məchul, qayıdış
E) məlum, qayıdış, icbar

***Mövzu:*** Feil
***Sinif:*** 6
***Alt-standart:*** 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.
***İzah:*** Cümlədə *darandı* feilində subyekt hərəkəti öz üzərində icra etdiyi üçün qayıdış növ;
*qucaqlaşdı* sözündə hərəkət qarşılıqlı şəkildə baş verdiyi və -ış$^4$ çəkilçisi olduğu üçün qarşılıq-birgəlik növ;
*güldürdü* feili feildən düzəlsə də, hərəkəti birbaşa subyekt özü icra etdiyi üçün məlum növdür.
***Doğru cavab:*** qayıdış, qarşılıq-birgəlik, məlum

**36.** "*Kimin ki dostu var, o, xoşbəxtdir*" cümləsi haqqında verilənlərdən biri ***yanlışdır***:
A) Tərkibindəki cümlələr müəyyən şəxslidir.
B) Həm baş, həm də budaq cümlə ismi xəbərlidir.
C) Tabeli mürəkkəb cümlədir.
D) Birincisi budaq, ikincisi baş cümlədir.
E) Tərkib hissələri bir-birinə bağlayıcı ilə bağlanmışdır.

***Mövzu:*** Mürəkkəb cümlə
***Sinif:*** 9
***Alt-standart:*** 4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir.

***İzah:*** Cümlədə budaq cümlə *Kimin ki dostu var* baş cümləyə *o, xoşbəxtdir* kimin ki bağlayıcı sözü ilə bağlanmışdır.
***Doğru cavab:*** Tərkib hissələri bir-birinə bağlayıcı ilə bağlanmışdır.

**37.** *"Xan, başına dönüm, sən nişan verdiyin[1] dam-daşı[2] tapdım[3], qutunun[4] qapağını[5] qaldırdım[6]"* nümunəsi ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Feili birləşmənin tərkibində hərəkətin subyektini bildirən söz işlənmişdir.
2. Xəbərlə sintaktik əlaqədə olan cümlə üzvü var.
3. Sintaktik əlaqənin hər iki növündən istifadə edilmişdir.
4. Üzərində rəqəm yazılmış sözlərdən hər biri tabelilik əlaqəsində yalnız asılı tərəf kimi çıxış etmişdir.
5. Mübtəda ilə xəbər arasında uzlaşma əlaqəsi var.

A) 4, 5 B) yalnız 1, 2 C) 1, 3, 5
D) 1, 2, 3 E) 2, 3, 4

***Mövzu:*** Sintaktik əlaqələr
***Sinif:*** *8*
***Alt-standart:*** 4.1.2. Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.
***İzah:*** Feili birləşmənin tərkibində ( *sən nişan verdiyin* ) hərəkətin subyektini bildirən söz işlənmişdir (*sən* )
Xəbərlə sintaktik əlaqədə olan cümlə üzvü var: *dam-daşı tapdım (nəyi tapdım?), qutunun qapağını qaldırdım (nəyi qaldırdım?)*
Sintaktik əlaqənin hər iki növündən istifadə edilmişdir – *tapdım, qaldırdım* – tabesizlik əlaqəsidir, cümlə üzvləri və söz birləşməsinin tərəfləri arasında da tabelilik əlaqəsi var.
***Doğru cavab:*** 1,2,3

**38.** Nümunələrdən hansında bütün isimlər mənsubiyyət şəkilçisi ilə işlənmişdir?
A) Ay xala, bura bax, ağlınca mənim neçə yaşım var? (Ü. Hacıbəyov)
B) Günəşin şüaları hər tərəfi eyni dərəcədə isitmirdi.
C) Qoyunu qoyun ayağından, keçini keçi ayağından. (Məsəl)
D) Çöldə hər çiçəyin bir ətri olar,
Hər gülün öz yeri, öz xətri olar. (N. Rəfibəyli)
E) Mənim böyük düşmənim öz bəxtimdir. (M.S. Ordubadi)

***Mövzu:*** *İsim*
***Sinif:*** *5*
***Alt-standart:*** 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.
***İzah:*** *Ay xala, bura bax, ağlınca mənim neçə yaşım var* cümləsində *xala* ismində mənsubiyyət şəkilçisi yoxdur.
*Günəşin şüaları hər tərəfi eyni dərəcədə isitmirdi* cümləsində *günəşin* ismində mənsubiyyət şəkilçisi yoxdur.
*Qoyunu qoyun ayağından, keçini keçi ayağından* cümləsindəki isimlərdən yalnız *ayağından* sözündə mənsubiyyət şəkilçisi var.
*Çöldə hər çiçəyin bir ətri olar,*
*Hər gülün öz yeri, öz xətri olar* cümləsində yalnız *ətri, yeri, xətri* sözlərində mənsubiyyət şəkilçisi var.
*Mənim böyük düşmənim öz bəxtimdir* cümləsində hər iki isim ( *düşmənim, bəxtim*) mənsubiyyət şəkilçilidir.
***Doğru cavab:*** *Mənim böyük düşmənim öz bəxtimdir.* (M.S. Ordubadi)

**39.** *"Qoy mən hicranınla qalım baş-başa,*
*Sən qəm zəncirini **qır**, boynundan **at**".* (R. Rza) nümunəsi ilə bağlı doğru fikirlərdir:
1. Leksik mənası olmayan sözlər işlənməyib.
2. Tünd-qara şriftlə fərqləndirilmiş sözlər omonimdir.
3. Bəzi sözlərin sinonimi var.
4. Bütün sözlərin həm leksik, həm də qrammatik mənası var.
5. İkinci misrada antonimi olan sözlər də var.

A) yalnız 3, 5 B) 2, 3, 5 C) 1, 5
D) 2, 4 E) 1, 3, 4

***Mövzu:*** *Leksika*
***Sinif:*** *5*
***Alt-standart:*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.
***İzah:*** *Tünd-qara şriftlə fərqləndirilmiş sözlər omonimdir,* çünki iki fərqli həqiqi leksik mənaya malikdir.
*Bəzi sözlərin sinonimi var fikri* doğrudur, çünki *qəm, hicran, qır, at* sözlərinin sinonimi mövcuddur.
*İkinci misrada antonimi olan sözlər də var:*
(*qəm-sevinc, qır-bitişdir, at-tut*).
***Doğru cavab:*** 2,3,5

**40.** Feili sifət tərkibinin təyin vəzifəsində işləndiyi cümləni müəyyən edin.
A) Uzaqdan gələnlərə tamaşa edən oğlan qardaşım idi. (İ. Əfəndiyev)
B) Başına döndüyüm gülüzlü sona,
Ömrümün ilk çağı yadıma düşdü. ( S.Vurğun)
C) Səlim yad bir şəhərliyə bələdçilik etdiyini bildirdi. (M. Cəlal)
D) Təyin olunmuş vaxtda imtahan başladı.
E) Parlayan ulduzlar sayrışanda onları seyr etməkdən doymurdu.

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 7- 8
***Alt-standart:*** 4.1.2. Sözləri ümumi qrammatik mənasına görə fərqləndirir; 4.1.2. Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.
***İzah:*** *Uzaqdan gələnlərə tamaşa edən oğlan qardaşım idi* cümləsində *tamaşa edən* feili sifəti özündən əvvəl gələn sözlərlə sintaktik əlaqəyə girərək tərkib yaratmış və təyin vəzifəsində işlənmişdir. Digər nümunələrdə isə feili sifət olsa da ( *başına döndüyüm, təyin olunmuş, parlayan* ), tərkib yaratmamışdır.
*başına döndüyüm* frazeoloji birləşmədir;
*təyin olunmuş* mürəkkəb feildir;
*parlayan* feili sifətdir.
*Səlim yad bir şəhərliyə bələdçilik etdiyini bildirdi* cümləsində isə feili sifət tərkibi (*yad bir şəhərliyə bələdçilik etdiyini)* tamamlıqdır.
***Doğru cavab:*** *Uzaqdan gələnlərə tamaşa edən oğlan qardaşım idi.*

***41 – 50 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

**Tərlan**

Dumanlı bir axşam kişnəyən atın səsi məni diksindirdi. Ürəyim döyündü, həyəcan içində özümü çölə atdım. Dayımla görüşməmiş Tərlanın boynuna sarıldım. “Tərlanım, kəhərim, qara gözlüm, sərv boylum”, – deyib üz-gözündən öpürdüm. Tərlan isə qollarımın arasından dayıma tərəf boylanırdı. Atın **etinasızlığı** məni məyus etsə də, ona tamaşa etməkdən doymurdum. [ ] Dayım:

– Apar, Tərlanı sula, amma xətrinə dəymə, bilirsən ki, dəymədüşərdir, – dedi.

Tərlan gölün dumduru suyundan içərkən onun məxmər[1] sağrısını, yalını tumarladım. [ ] Tərlanın laqeydliyi birdən mənə elə yer elədi ki, nəfəsim sinəmdə qısıldı. Halbuki belə hallarda o, həmişə dayımla zarafata başlar, **şəfqətlə** dayımın qollarını qapardı. Dərhal cilovundan tutub bir göz qırpımında belinə sıçradım.

| Tərlan gözlədiyi bu davranışdan diksinərək şahə qalxdı, sanki qəsdimə durub məni üstündə saxlamağa çalışırdı. |
|---|

Hirsindən geniş açılmış burun pərələri elə bil alov saçırdı. Mən **fürsəti** əldən verməyərək var gücümlə onun sağrısına qırmancla sərt zərbə endirdim.

Heç vaxt kobud rəftar görməmiş Tərlanın **heysiyyəti**, varlığı birinci dəfə idi ki, bu cür təhqir olunurdu. Tərlan elə sürətlə qaçmağa başladı ki, sanki qanadlanmışdı. [ ] Elə bil qəsdən ölümə, fəlakətə doğru gedirdi.

Yıxılmamaq üçün onun dik saxladığı boynuna sarılmışdım. Atın ürəyinin partlaya biləcəyini düşündükcə alnımı soyuq tər basırdı. Saxlamaq üçün ümidsizcə bir tədbirə əl atdım. Başını suların bataqlıq əmələ gətirdiyi qamışlığa tərəf çevirdim. **Zənnim** məni aldatmamışdı. Bataqlıq tez onun öhdəsindən gəldi: ümidsiz sıçrayışlardan sonra ayaqları bərk buxovlandı[2]. Mən Tərlanı xilas etdiyimi düşündüm, lakin birdən hələ qan-tər içində olan at dəhşətli ürək yanğısı ilə soyuq bataqlıq suyunu içməyə başladı. Dəli kimi Tərlanın böyürlərini təpikləməyə, boynunu yumruqlamağa başladım. [ ] Artıq bütün səylərim əbəs idi, iş işdən keçmişdi.

O gün Tərlan bərk xəstələndi, ayaqları <u>tutuldu</u>. Heç kim çarə edə bilmirdi. Mən isə dayımın gözünə görünmürdüm, dərd içimi qurd kimi gəmirirdi.

Nəhayət, bir neçə gündən sonra dayım küçədən məni səslədi. Ürəyimdə dərin kədər hissi ilə yüyürüb küçəyə çıxdım. Atının yüyənindən tutub dayanmış dayımın məzəmmət dolu baxışlarından qaçaraq Tərlanın gözlərinə baxdım. Harda idi o alovlu gözlər?! Bu gözlərin ...

Bundan sonra Tərlanla daha həssas davranacağıma söz verdim.

**41.** Fikirlərdən hansının səbəbi mətndə öz əksini ***tapmayıb***?

1. Tərlanın xəstələnməsinin
2. Atın sürətlə qaçmasının
3. Dayısının nəyə görə atı sulamağı oğlana tapşırmasının
4. Oğlanın atı qamışlığa sürməsinin
5. Tərlanın dəymədüşər olmasının

A) 1, 2, 4 B) 3, 5 C) 3, 4, 5 D) 2, 3 E) 1, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** Mətndən aydın olur ki**,** Tərlanın xəstələnməsinin, atın sürətlə qaçmasının, oğlanın atı qamışlığa sürməsinin səbəbi var. Lakin dayısının nəyə görə atı sulamağı oğlana tapşırmasının, Tərlanın niyə dəymədüşər olmasının səbəbi mətndə öz əksini tapmamışdır.
***Doğru cavab:*** 3,5

**42.** Mətnə əsasən uyğunluğu müəyyən edin.

| ***Doğrudur*** | ***Yanlışdır*** |
|---|---|
| 1. Tərlanın laqeydliyi, yalnız öz sahibinin nəvazişlərinə qarşılıq verməsi oğlanın düşünmədən hərəkət etməsinə səbəb olur.<br>2. Dayısı atın başına gələnlərdə oğlanı səbəbkar bilmir. | 3. At, sadəcə, sahibinin kobud davranışlarına alışmışdı, oğlanın kobudluğu onun heysiyyətinə toxunur.<br>4. Oğlan etdiyi səhvi düzəltmək üçün əlindən gələni etməyə çalışsa da, bacarmır. |

A) 2, 3 B) 1, 3 C) 2, 4 D) 1, 2 E) 3, 4

***Mövzu:*** Mətn
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***Sinif:*** 5-11
***İzah:*** Mətnin məzmunundan aydın olur ki,1-ci fikir doğrudur, çünki oğlan Tərlanı qırmancla vurur. 3-cü fikir isə yanlışdır, çünki sahibinin ata qarşı heç bir kobud davranışı mətndə qeyd olunmayıb.
2-ci fikir yanlış olduğu halda, doğruya, 4-cü fikir isə doğru olduğu halda, yanlışa yazılmışdır.
***Doğru cavab:*** 1,3

**43.** Mətndə tünd-qara hərflərlə verilmiş sözlərdən birinin qarşılığı hansı cümlədə düzgün ***verilməmişdir***?

A) Eyvaz babanın təxminləri həmişə doğru çıxardı.
B) İmkan düşən kimi köhnə sənədləri sahmanlamağa çalışardı.
C) Dostunun saymazlığı Qaraşı çox məyus etmişdi.
D) Mənliyi olan insan həyatda şərəflə yaşayıb, şərəflə ölər.
E) Ana həsrətlə oğlunun üzünə, gözlərinə, boy-buxununa tamaşa edirdi.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.1.1. Tanış olmadığı söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.
***İzah:*** *Ana həsrətlə oğlunun üzünə, gözlərinə, boy-buxununa tamaşa edirdi cümləsində* tünd-qara hərflərlə verilmiş heç bir sözün qarşılığı yoxdur. Amma digər variantların hər birində həmin sözlərin qarşılığı var.
*( etinasızlığı – saymazlığı; zənn-təxmin; fürsəti-imkan; heysiyyəti-mənliyi)*
*şəfqətlə* sözünün isə qarşılığı heç bir variantda yoxdur.
***Doğru cavab:*** Ana həsrətlə oğlunun üzünə, gözlərinə, boy-buxununa tamaşa edirdi.

**44.** Mətndə altından xətt çəkilmiş söz hansı cümlədə eyni mənanı ifadə edir?

A) Ev yiyəsi çağırılmamış qonağın atmacalarından bərk tutuldu.
B) Caninin tutulması üçün hər kəs əlindən gələni edirdi.

C) Qocanın beli tutuldu, günlərlə çarpayıdan qalxa bilmədi.
D) Hal-hazırda abadlaşan ərazilərimiz əvvəlki halı ilə bir tutulmamalıdır.
E) Göy üzü tutulmuş, hava soyumuşdu.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.1.1. Tanış olmadığı söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.
***İzah:*** Mətndəki *O gün Tərlan bərk xəstələndi, ayaqları* *tutuldu* cümləsindəki altından xətt çəkilmiş söz *fəaliyyətini itirdi* mənasında işlənmişdir. Doğru cavab kimi qeyd olunan cümlədə də eyni mənadadır.
A variantında *pərt olmaq;* B variantında *həbs olunmaq;*
D variantında *müqayisə etməmək*; E variantında isə *müvəqqəti olaraq görünməmək* mənasındadır.
***Doğru cavab:*** Qocanın beli tutuldu, günlərlə çarpayıdan qalxa bilmədi.

**45.** Verilmiş fikirlər mətndəki boş çərçivələrin yerinə hansı ardıcıllıqla əlavə edilsə, mətnin tərkib hissələri arasında əlaqə ***pozulmaz***?
1. Lakin mənim zarafatıma, nəvazişimə əsla məhəl qoymur, qətiyyən üzümə baxmırdı.
2. O, enişlərdən üzüaşağı uçur, sonra bir anda qaçıb yoxuşlar başına qalxırdı.
3. Alovlu qara gözləri, möhkəm ayaqları, məğrur görkəmi ilə bu sədaqətli dost sanki bir möcüzə idi.
4. Lakin Tərlan sanki heç nə hiss etmir, buz kimi soyuq, bulanıq suyu ara vermədən içirdi.

A) 3, 1, 4, 2 B) 1, 3, 4, 2 C) 1, 3, 2, 4
D) 3, 1, 2, 4 E) 2, 3, 4, 1

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir.
***İzah:*** Mətnin məzmununa diqqət yetirdikdə aydın görünür ki, birinci boşluğa *tamaşa etməkdən doymurdum* ifadəsinə əsasən məhz atın xarici görkəmi ilə bağlı fikir olan *alovlu qara gözləri, möhkəm ayaqları, məğrur görkəmi ilə bu sədaqətli dost sanki bir möcüzə idi* cümləsi;
ikinci boşluğa *Tərlanın laqeydliyi* ifadəsinə əsasən *Lakin mənim zarafatıma, nəvazişimə əsla məhəl qoymur, qətiyyən üzümə baxmırdı* cümləsi;
üçüncü boşluğa *sanki qanadlanmışdı* ifadəsinə əsasən, *O, enişlərdən üzüaşağı uçur, sonra bir anda qaçıb yoxuşlar başına qalxırdı* cümləsi;
dördüncü boşluğa isə *böyürlərini təpikləməyə, boynunu yumruqlamağa başladım* ifadələrinə əsasən, *Lakin Tərlan sanki heç nə hiss etmir, buz kimi soyuq, bulanıq suyu ara vermədən içirdi* cümləsinin yazılması doğrudur.
***Doğru cavab:*** 3,1,2,4

***46 – 50 saylı tapşırıqları “Cavab vərəqləri”ndə cavablandırın.***

**46.** Məzmuna əsasən nöqtələrin yerinə obrazlı ifadələr yazmaqla cümləni tamamlayın.
***Mövzu:***Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir
**Ehtimal olunan doğru cavablar:**

- dərinliyində qüssə var idi.
- arxasında kədər gizlənmişdi.
- odu-alovu sönmüşdü.
- sanki alovu sönmüşdü.
- işığı azalmışdı.
- odu sönmüşdü
- içində sonsuz kədər görünürdü
- gözəlliyi itmişdi
- parıltısı itmişdi ( getmişdi )
- kədəri artmışdı
- sevinci yox olmuşdu və s. kimi fikirlər doğru hesab edilir.

**47.** Hadisəni danışan obrazla bağlı cədvəli tamamlayın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
**Ehtimal olunan doğru cavablar:**

| **Obrazın xarakterik xüsusiyyətləri** | **Əsaslandırma** |
|---|---|
| *1.qısqanc, paxıl* | *Atı dayısına, dayısının sevgisinə qısqanır.* |
| *2.həssas düşüncəsiz<br><br>3.səhvini anlayan,<br>4. peşmanlıq keçirən<br>5.kobud, qəddar<br>6.cəsarətli, cəsur<br>7.səbirsiz<br>8.qayğıkeş* | *Atın etinasızlığından təsirlənir.<br>Etdiyi hərəkətlərin nəyə səbəb ola biləcəyini düşünə bilmir.<br>Etdiyi hərəkətlərdən peşmanlıq keçirir.Əzab çəkir.<br><br>Ata möhkəm qırmanc zərbəsi vurur.<br>Cəsarət göstərərək yüyənsiz atın üstünə atılır.<br>Atın sevgisini tez qazanmaq istəyirdi.<br>Tərli olan atın soyuq su içməsinə mane olmaq istəyirdi və s.* |

**48.** Mətnin məzmunu ilə bağlı uyğun fikirləri qeyd edin (✓) və mətnlə əlaqələndirib seçiminizi əsaslandırın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
**Ehtimal olunan doğru cavablar:**
*1. Bəzi xarakterik keyfiyyətlər yalnız insanlara məxsus deyil.*✓
*2. Cəsarətlə ölmək cəsarətlə yaşamaqdan çətindir.*
*3. Peşmanlıq və günahkarlıq duyğusu edilən səhvlərin ən böyük cəzasıdır.* ✓
***Əsaslandırma:***
*1.*

- *Tərlan qürurlu at idi, şərəfinə toxunan qamçı zərbəsi alması ilə barışa bilmir, gözlənilməz davranışdan diksinərək oğlanı üstündən atmağa çalışır.*
- *Tərlan öz sahibinə sədaqətlidir, ondan başqa kimsənin nəvazişini qəbul etmir.*
- *Tərlan inadkardır ( tərsdir ), oğlana tabe olmur.*
- *Tərlan laqeyddir, oğlanın nəvazişlərinə etinasızlıq edir.*
- *Tərlan zarafatı sevir, həmişə oğlanın dayısı ilə zarafatlaşır.*

- *Tərlan mehribandır, şəfqətlə dayının qollarını qapır.*

3.
- *Oğlan Tərlana etdiyi düşüncəsiz hərəkətindən peşman olur, vicdanı onu rahat buraxmır.*
- *Oğlan etdiyi hərəkətdən nəticə çıxarır, Tərlana qarşı daha həssas davranacağına söz verir.*
- *Oğlan dayısının gözünə görünməkdən utanır, dərd içini qurd kimi gəmirir.*
- *Oğlan dayısının məzəmmət dolu baxışlarından qaçır.*
- *Oğlan ürəyində dərin kədər hissi keçirir.*

**49.** Mətndə üzərində rəqəm yazılmış sözlərə əsasən cədvəli tamamlayın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.1.2. Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını kontekstə uyğun dəqiqləşdirməklə şərh edir.

**Ehtimal olunan doğru cavablar:**

| *Söz* | ***Sözün mətndəki funksiyası(poetik, informativ və ya terminoloji)*** | ***Digər funksiyada cümlədə işlədilməsi*** |
|---|---|---|
| *1.məxmər* | *poetik* | *Satıcı məxmər parçaları taxtın üstünə tökdü; Məxmər parçadan paltar tikdirmişdim və s.* |
| *2.buxovlandı* | *poetik* | *Qoyunun ayaqları kəndirlə buxovlanmışdı. İnəyin ayaqları kəndirlə ağaca buxovlanmışdı. Heyvanın ayaqları kəndirlə buxovlanmışdı və s.* |

**50.** Mətndə çərçivəyə alınmış hissədə ədəbi dilin normalarına uyğun düzəliş edərək cümləni yenidən yazın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.
***Ehtimal olunan doğru cavab:***
*Tərlan **gözləmədiyi** bu davranışdan diksinərək şahə qalxdı, sanki qəsdimə durub məni **üstündən atmağa** çalışdı.*

***51 – 60 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

**Yuxu**

Yuxu haqqında elm çox qədim tarixə malikdir. Eramızdan əvvəlki dövrə aid hind eposlarında, yunan filosoflarının əsərlərində yuxunun optimal uzunluğu barədə müxtəlif fikirlər var. Qədim Romada deyirdilər ki, yeniyetməyə altı saat yuxu kifayət edər, tənbələ yeddi saat verin, amma heç kim səkkiz saat yatmasın. Qloballaşan dünyada vaxt ölçüləri insanı getdikcə çox narahat edən problemlərdəndir. Yuxunu azaldaraq vaxt qazanmaq olarmı?

Bu sahədə son 30 ildə bir çox irimiqyaslı araşdırmalar aparılmışdır: Naqoya Universitetinin (Yaponiya) alimləri müəyyən ediblər ki, gündə 6-7 saat yatan adamlar daha uzunömürlü olurlar. Gün ərzində 4 saatdan az yatanların ömrü onlardan 1,6 dəfə, 9 saatdan çox yatanların ömrü isə 1,8 dəfə qısa olur.

London Universitet Kollecinin mütəxəssisləri fasilələrlə 5431 ofis işçisinin səhhətini izləyib. Tədqiqatın nəticələri göstərir ki, gündə yeddi saatdan az və ya çox yatmaq insanların sağlamlığına mənfi təsir göstərir, əqli fəaliyyətini zəiflədir.

2004-cü ildə Kaliforniya Universitetinin bir milyondan artıq adamın iştirakı ilə altı il ərzində keçirilən tədqiqatı göstərdi ki, gündə səkkiz saat yatmayan insanların ömrü daha uzun olur.

Beləliklə, araşdırmalar insanın optimal yuxu müddətini müəyyən etdi.

Fransa imperatoru Napoleon hesab edirdi ki, yuxu üçün dahilərə dörd, adi adamlara altı, ağılsızlara səkkiz saat gərəkdir. Dahi alman alimi Albert Eynşteyn deyirdi: "Mən ömrümün üçdə bir hissəsini yuxuda keçirmişəm, bu heç də onun ən pis hissəsi olmayıb". Məşhur italyan rəssamı və ixtiraçısı Leonardo da Vinçinin həyatının yarısı ***dərin*** yuxuda keçib və s.

Yuxu üçün yeddi saat orta norma kimi götürülsə də, hər bir insanın orqanizmi ***fərdidir***. Elə insanlar var ki, uzun müddət ***gərgin*** işdən sonra yarım saat yatmaqla yenidən fəal iş rejiminə qayıdırlar.

Hər kəs fərdi yuxu normasını özü müəyyənləşdirməyə çalışmalıdır. Bir həftə gecə yatdığı və səhər oyandığı vaxtı qeydə almalı, özünü hansı halda daha gümrah hiss etdiyinə diqqət yetirməli və bu ***kiçik*** eksperimentin nəticəsinə uyğun rejim seçməlidir.

Yuxu psixoloji vəziyyətdən, yorğunluqdan, mövsümdən və s. ***asılıdır***. Yazda və yayda gecələr kimi insan yuxusu da qısalır.

Gecə yuxuya gedərkən pozitiv şeylər haqqında düşünün ki, səhər gümrah oyanasınız. Səhər gözünüzü açanda "1**...**", – deyə düşünməyin, "Həyat gözəldir, 2**...** , onu bir az da gözəlləşdirim", – deyin.

**51.** Mətndə qara hərflərlə verilən sözlərə əsasən cədvəldəki ***yanlış*** fikirləri müəyyən edin.

| Söz | Mətndəki funksiyası | Fərqli funksiyada işlədilməsinə aid nümunə |
|---|---|---|
| 1. dərin | poetik | Qocanın üzündən dərin əzab keçirdiyi hiss olunurdu. |
| 2. fərdi | informativ | Fərdi üslub dil vasitələrindən xüsusi istifadə zamanı meydana çıxır. |
| 3. gərgin | terminoloji | Gərgin dəqiqələr davam etdikcə tələbənin həyəcanı daha da artırdı. |
| 4. kiçik | poetik | Arifə kiçik işarə bəs edər. |
| 5. asılı | poetik | Divardan asılı portret qeyri-adiliyi ilə diqqətimi cəlb etdi. |

A) 1, 3, 4 B) 3, 5 C) 1, 4, 5 D) 1, 2, 3 E) 2, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətinə görə fərqləndirir.
***İzah:*** Mətndə tünd-qara hərflərlə verilən sözlər əks olunmuş cədvəldə *dərin* və *kiçik* sözlərinin mətndəki funksiyası düzgün qeyd edilsə də, onlara aid olan nümunədə

tapşırığın tələbinə uyğun olaraq, fərqli funksiyada işlədilməmiş, eyni mənada qalmışdır.

*gərgin* sözü haqqındakı birinci fikir yanlışdır: söz mətndə informativ funksiyada işlənib.

*fərdi* və *asılı* sözləri haqqındakı fikirlər isə tapşırığın tələbinə uyğun doğru yazılmışdır.

***Doğru cavab:*** 1,3,4

**52.** Çərçivədə verilən sözün kontekstə uyğun qarşılığı işlənən nümunələri müəyyən edin.

1. Astara çay əkini üçün ən əlverişli ərazilərdən biridir.
2. Bu iş üçün ən münasib üsuldan istifadə ediləcək.
3. Hamımız onun zəngin təcrübəsindən yararlana bilərik.
4. Kamal baba çəməndən ən faydalı çiçəkləri toplayıb qurudurdu.
5. Ana əsgər oğlunun çantasını ən zəruri ərzaqlarla doldurdu.

A) 2, 4 B) 1, 3 C) 3, 5 D) 4, 5 E) 1, 2

***Mövzu:*** Mətn

***Sinif:*** 5-11

***Alt-standart:*** 2.1.1. Tanış olmadığı söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.

***İzah:*** *Astara çay əkini üçün ən əlverişli ərazilərdən biridir; Bu iş üçün ən münasib üsuldan istifadə ediləcək* cümlələrində işlənmiş *ən əlverişli, ən münasib* ifadələri kontekstə uyğun olaraq *optimal* sözünün qarşılığıdır. Digər cümlələrdə olan heç bir söz kontekstə görə *optimal* sözünün qarşılığı hesab edilə bilməz.

***Doğru cavab:*** 1,2

**53. Mətnə əsasən hansı suallara cavab tapmaq mümkündür?**

1. Yuxu rejiminə əməl edən insan neçə il ömür sürə bilər?
2. Nə üçün hər bir insanın yuxu rejimi fərqlidir?
3. Fəsillər yuxunun müddətinə necə təsir edir?
4. Leonardo da Vinçinin yuxu haqqında fikirləri hansı tədqiqatla üst-üstə düşür?
5. Yuxu ilə bağlı araşdırma aparan təhsil müəssisələri bir-biri ilə əməkdaşlıq edirmi?

A) 1, 3 B) 1, 4 C) 4, 5 D) 2, 5 E) 2, 3

***Mövzu:*** Mətn

***Sinif:*** 5-11

***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

***İzah:*** Mətndə qeyd olunur ki, hər bir insanın orqanizmi fərdi olduğu üçün yuxu rejimi də fərqlidir. (*Yuxu üçün yeddi saat orta norma kimi götürülsə də, hər bir insanın orqanizmi fərdidir. Elə insanlar var ki, uzun müddət gərgin işdən sonra yarım saat yatmaqla yenidən fəal iş rejiminə qayıdırlar.*)

*Yazda və yayda insan yuxusunun qısalması* da fəsillərin yuxu müddətinə təsir etməsinin göstəricisidir.

Mətnin məzmununda yuxu rejiminə əməl edən insanın neçə il ömür sürməsi, Leonardo da Vinçinin yuxu haqqında fikirləri, təhsil müəssisələri bir-biri ilə əməkdaşlığı haqqında heç bir fikrə rast gəlinmir.

***Doğru cavab:*** 2,3

**54. Mətnin tezisləri hesab edilə bilər:**

1. Yuxu bir sıra daxili və xarici faktorlardan asılıdır.
2. Yuxu ilə bağlı tədqiqatlara çoxlu sayda insan cəlb olunmuşdur.
3. Yuxu üçün dahilərə dörd saat lazımdır.
4. Yuxu haqqında çoxlu fikirlər var.
5. Hind eposları eramızdan əvvəlki dövrə aiddir.

A) 2, 3 B) yalnız 1, 2 C) 1, 2, 4
D) 1, 4, 5 E) 1, 3, 5

***Mövzu:*** Mətn

***Sinif:*** 10

***Alt-standart:*** 2.2.2. Mətnin hissələrini tezislər şəklində ifadə edir.

***İzah:*** Tezis mətndən əsas müddəanın seçilməsidir və faktlarla sübut edilməlidir.

*Yuxu bir sıra daxili və xarici faktorlardan asılıdır;*
*Yuxu ilə bağlı tədqiqatlara çoxlu sayda insan cəlb olunmuşdur;*
*Yuxu haqqında çoxlu fikirlər var* bəndləri doğru fikirlərdir, çünki mətndə hər birini təsdiq edən bir neçə fakt var.

Digər bəndlərdə qeyd olunanlar isə, sadəcə, sübuta ehtiyac duyulmayan fikirlərdir,buna görə də tezis hesab edilmir.

***Doğru cavab:*** 1,2,4

**55.** Mətnə əsasən doğru fikirləri müəyyən edin.

1. Tədqiqatlara əsaslansaq, Albert Eynşteynin əqli fəaliyyətinin yüksək, ömrünün uzun olduğu qənaətinə gəlmək olar.
2. Fransa imperatoru Napoleonun yuxu haqqındakı fikirləri ilə London Universitet Kollecinin mütəxəssislərinin fikirləri üst-üstə düşür.
3. Alman aliminin fikirləri qədim romalıların yuxu haqqındakı fikirləri ilə eyni deyil.
4. İnsan fərdi yuxu rejimini özü müəyyənləşdirə bilər.
5. Optimal yuxu müddətinin müəyyən olunmasında son 30 ildə aparılan araşdırmalarla yanaşı, tarixi şəxsiyyətlərin həyat və təcrübələri də rol oynamışdır.

A) 4, 5 B) 1, 3 C) 2, 5 D) 3, 4 E) 1, 2

***Mövzu:*** Mətn

***Sinif:*** *5-11*

***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

***İzah:*** Mətndə alman aliminin fikirləri ilə qədim romalıların yuxu haqqındakı fikirləri tamamilə fərqlidir. Yəni alman alimi Eynşteyn *ömrünün üçdə bir hissəsinin yuxuda keçdiyini* qeyd edir. Qədim romalılar isə deyirdilər ki, *yeniyetməyə altı saat yuxu kifayət edər, tənbələ yeddi saat verin, amma heç kim səkkiz saat yatmasın.* Eyni zamanda, mətndə qeyd olunur ki, *insan fərdi yuxu rejimini özü müəyyənləşdirə bilər*.

Lakin mətndə nə Albert Eynşteynin uzunömürlülüyü, nə Napoleonun yuxu haqqındakı fikirləri ilə London Universitet Kollecinin mütəxəssislərinin fikirlərinin eyniliyi, nə də tarixi şəxsiyyətlərin həyat və təcrübələrinin optimal yuxu müddətinin müəyyən olunmasında təsiri ilə bağlı fikir var.

***Doğru cavab:*** 3,4

***56 – 60 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

**56.** Mətnə əsasən Napoleonun yuxu haqqında fikirlərinə zidd olan iki fikir yazın.

***Mövzu:*** Mətn

***Sinif:*** 5-11

***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

**Ehtimal edilən düzgün cavablar:**

*Fransa imperatoru Napoleon hesab edirdi ki, yuxu üçün dahilərə dörd, adi adamlara altı, ağılsızlara səkkiz saat gərəkdir.*

Aşağıda qeyd olunanlar bu fikrə ziddir:

1. İtalyan rəssamı və ixtiraçısı Leonardo da Vinçinin həyatının yarısı yuxuda keçib;

2. Albert Eynşteyn deyirdi: “Mən ömrümün üçdə bir hissəsini yuxuda keçirmişəm və bu heç də onun ən pis hissəsi olmayıb;
3. Gün ərzində 4 saatdan az yatanların ömrü 6-7 saat yatanların ömründən 1,6 dəfə kiçik olur.
4. Gündə 7 saatdan az və ya çox yatmaq insan sağlamlığına mənfi təsir göstərir, əqli fəaliyyətini zəiflədir.

**57.** Mətnə əsasən cədvəli tamamlayın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
**Ehtimal edilən düzgün cavablar:**

| Səbəb | Hadisə | Nəticə |
|---|---|---|
| Yuxunun xüsusiyyətləri və optimal uzunluğu barədə müxtəlif fikirlər olması;<br>Yuxunun optimal uzunluğu haqqında dəqiq məlumatın olmaması;<br>Yuxunu azaldaraq vaxt qazanmağın mümkünlüyünü müəyyən etmək üçün;<br>Vaxt ölçülərinin insanı getdikcə daha çox narahat edən problem olduğu üçün;<br>İnsanın yuxu rejiminin onun ömrünün uzanıb və ya qısalmasına təsiri müəyyən etmək üçün;<br>Yuxunun əqli fəaliyyətə təsirini bilmək üçün;<br>Yuxunun insan sağlamlığına təsirini bilmək üçün;<br>Psixoloji vəziyyətin, yorğunluğun, mövsümlərin və s. insan yuxusuna təsirini öyrənmək üçün və s. | Yuxu ilə bağlı çoxsaylı tədqiqatlar aparılmışdır. | Optimal yuxu müddəti müəyyən edildi;<br>Yeddi saatlıq yuxu orta norma kimi götürüldü;<br>Yazda və yayda insan yuxusunun qısaldığı müəyyən edildi;<br>Gündə 6-7 saat yatan adamların daha uzunömürlü olduğu müəyyən edildi;<br>Gündə 6-7 saat yatmayan (az və ya çox yatan) adamların ömrünün daha qısa olduğu müəyyən edildi;<br>Çox yatmağın əqli fəaliyyəti zəiflətməsi müəyyən edildi və s. |

**58.** Mətnə əsasən cədvəli tamamlayın.
***Mövzu:*** Mətn
***Sinif:*** 7
***Alt-standart:*** 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır.
**Ehtimal edilən düzgün cavablar:**

| Müddəa | Müddəanı təsdiq edən faktlar |
|---|---|
| 1.Yuxu problemi böyük simaların maraq dairəsində olub. | *Napoleon, Albet Eynşteyn, yuxu haqqında fikir söyləyiblər.* |
| *Yuxu mövsümdən də asılıdır.*<br>*Yuxu xarici amillərdən də asılıdır.* | 3.Yazda və yayda gecələr kimi insan yuxusu da qısalır |
| 2.Yuxu haqqında fikirlərin tarixi qədimdir. | *Eramızdan əvvəlki dövrə aid hind eposlarında, yunan filosoflarının əsərlərində yuxunun xüsusiyyətləri və optimal uzunluğu barədə ən müxtəlif fikirlər var.* |

**59.** Mətnə əsasən Eyler-Venn diaqramını doldurun.




***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
**Ehtimal edilən düzgün cavablar:**
**London Universitet Kolleci:**
- Gündə yeddi saatdan az və ya çox yatmaq insanların sağlamlığına mənfi təsir göstərir;
- Əqli fəaliyyəti zəiflədir; Tədqiqatı fasilələrlə keçirmişdir;
- Tədqiqatı ofis işçiləri üzərində aparmışdır və s.

**Naqoya Universiteti:**
- Gün ərzində 6-7 saat yatan adamlar daha uzunömürlü olurlar;
- 4 saatdan az, 9 saatdan çox yatanların ömrü qısa olur və s.

**Oxşar:**
- Yuxu haqqında tədqiqat keçirib;
- Ən irimiqyaslı tədqiqatın müəllifidir və s.

**60.** Mətnə əsasən nömrələnmiş boşluqlara uyğun gələn fikirlər yazın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
**Ehtimal edilən düzgün cavablar:**
***1.***
- *Eh, yenə də problemlərin qucağına düşəcəyəm.*
- *Bir az da çox yatım;*
- *Bir az da yatsam, heç nə olmaz;*
- *Oyanmaq üçün hələ tezdir ;*
- *Yenə gün başladı;*
- *Niyə oyanmışam ki;*
- *Tez durub nə edəcəm ki;*
- *Borc batağında üzürəm;*
- *Yaşamaq istəmirəm;*
- *Yaşamağın nə mənası var;*
- *Həyat niyə belədir;*
- *Həyatda maraqlı nə var;*
- *Yaşamağımın kimə faydası var* və s. cümlələrinə oxşar neqativ, bədbin fikirlər;

**2.**
- *Qoy qalxım, onu bir az da gözəlləşdirim;*
- *İndi oyanım, bu gözəlliyi daha çox seyr edim;*
- *Yuxudan qalım, bu gözəlliyi qaçırmayım;*
- *Mən bu gözəl həyatı yaşamalıyam;*
- *Həyat maraqlıdır;*
- *Yaşamağa dəyər;*
- *Məni yaxşı işlər gözləyir;*
- *Nə yaxşı oyandım;*
- *Mən xoşbəxtəm;*
- *Bu gün uğurlu olacaq və s. cümlələrinə oxşar, pozitiv, nikbin fikirlər.*

## Riyaziyyat

**61.** $-3x > 9$ bərabərsizliyinin ən böyük tam həllini tapın.
A) $-5$ B) $-4$ C) $-2$ D) $-3$ E) $-1$

***Mövzu:*** Bərabərsizliklər
***Sinif***: 8
***Alt-Standart:*** 2.1.2. Birdəyişənli xətti bərabərsizliyə gətirilən sadə məsələləri həll edir.
***İzah:*** $-3x > 9$ olduğundan, bərabərsizliklərin xassəsinə görə $x < -3$ olar. Bərabərsizliyin ən böyük tam həlli –4-dür.
***Doğru cavab:*** $-4$

**62.** $z$ kompleks ədədi üçün $\operatorname{Re} z=5$ və $\operatorname{İm} z=-2$ olarsa, bu kompleks ədədin qoşmasını tapın.
A) $5-2i$ B) $-5-2i$ C) $-5+2i$
D) $2-5i$ E) $5+2i$
***Mövzu:*** Kompleks ədədlər
***Sinif:*** 11
***Alt-standart:*** 1.1.1. Kompleks ədəd anlayışı ilə tanışdır.
***İzah:*** $z=a+bi$ şəklində yazılmış kompleks ədəddə $a=\operatorname{Re} z$, $b=\operatorname{İm} z$ və z ədədinin qoşması isə $\bar{z}=a-bi$ -dir. $\operatorname{Re} z=5$ və $\operatorname{İm} z=-2$ olduğundan $z=5-2i$ və $z$ kompleks ədədinin qoşması isə $5+2i$ olar.
***Doğru cavab:*** $5+2i$

**63.** $a$-nın hansı ən kiçik qiymətində $\overline{205ab}$ ədədi 9-a qalıqsız bölünər?
A) 2 B) 4 C) 0 D) 3 E) 1

***Mövzu:*** Natural ədədlər
***Sinif:*** 6
***Alt-standart:*** 1.2.1. Natural ədədlər üzərində hesab əməllərini yerinə yetirir.
***İzah:*** Rəqəmləri cəmi 9-a tam bölünən ədədlər 9-a qalıqsız bölünür. $\overline{205ab}$ ədədinin 9-a qalıqsız bölünməsi üçün $2+0+5+a+b=7+a+b$ cəmi 9-a tam bölünməlidir. Buradan, $b=2$ olduqda $a=0$ alınır.
***Doğru cavab:*** 0

**64.** $5^{x+1}=\left(\frac{1}{5}\right)^{x-2}$ tənliyini həll edin.

A) $-0{,}5$ B) $0{,}5$ C) 1 D) 0 E) $-1$
***Mövzu:*** Üstlü tənliklər
***Sinif:*** 10
***Alt-standart:*** 2.3.2. Üstlü və loqarifmik tənlikləri, bərabərsizlikləri həll edir.
***İzah:***

$$5^{x+1}=\left(\frac{1}{5}\right)^{x-2} \Rightarrow 5^{x+1}=5^{-(x-2)} \Rightarrow x+1=-(x-2)$$

$\Rightarrow x=0{,}5$.
***Doğru cavab:*** 0,5

**65.** $K$ və $L$ nöqtələri $ABC$ üçbucağının, uyğun olaraq, $BC$ və $AC$ tərəflərinin orta nöqtələri olarsa, ştrixlənmiş hissənin sahəsi $ABC$ üçbucağının sahəsinin hansı hissəsini təşkil edir?




A) $\frac{1}{2}$ B) $\frac{2}{3}$ C) $\frac{2}{5}$ D) $\frac{1}{4}$ E) $\frac{1}{3}$
***Mövzu:*** Fiqurların sahəsi
***Sinif:*** 9
***Alt-standart:*** 3.1.4. Üçbucağın, paraleloqramın, rombun, trapesiyanın sahəsini hesablayır.
***İzah:*** ***I üsul:*** $L$ nöqtəsi $AC$ tərəfinin orta nöqtəsi olduğundan, $AKL$ və $AKC$ üçbucaqlarının sahələri üçün $S_{\Delta AKL}=\frac{1}{2}\cdot S_{\Delta AKC}$ olar. Eləcə də, $K$ nöqtəsi $BC$ tərəfinin orta nöqtəsi olduğundan, $AKC$ və $ABC$ üçbucaqlarının sahələri üçün $S_{\Delta AKC}=\frac{1}{2}\cdot S_{\Delta ABC}$ olar.

Onda, $\frac{S_{\Delta AKL}}{S_{\Delta ABC}}=\frac{\frac{1}{2}\cdot S_{\Delta AKC}}{S_{\Delta ABC}}=\frac{\frac{1}{2}\cdot\frac{1}{2}\cdot S_{\Delta ABC}}{S_{\Delta ABC}}=\frac{1}{4}$ alınar.

***II üsul:*** $L$ nöqtəsi $AC$ tərəfinin orta nöqtəsidir. $K$ nöqtəsindən $AKL$ və $LKC$ üçbucaqlarının $AL$ və $LC$ tərəflərinə çəkilmiş hündürlüklər eyni olduğundan, bu üçbucaqların sahələri üçün $S_{\Delta AKL}=S_{\Delta LKC}$ olar. Eləcə də, $K$ nöqtəsi $BC$ tərəfinin orta nöqtəsi və $C$ nöqtəsi $ABC$ və $LKC$ üçbucaqlarının ortaq təpə nöqtəsi olduğundan,

$\Delta ABC \sim \Delta LKC$ olar. Onda, $\frac{S_{\Delta LKC}}{S_{\Delta ABC}}=\left(\frac{LC}{AC}\right)^2=\frac{1}{4}$ alınar.

Onda, $\frac{S_{\Delta AKL}}{S_{\Delta ABC}}=\frac{S_{\Delta LKC}}{S_{\Delta ABC}}=\frac{1}{4}$ olar.

***Doğru cavab:*** $\frac{1}{4}$

**66.** $\sin(2x-3)=1$ tənliyini həll edin.

A) $-\frac{\pi}{2}+\pi k+\frac{3}{2}; k\in Z$ B) $\frac{\pi}{2}+\pi k; k\in Z$
C) $-\frac{\pi}{4}+2\pi k+\frac{3}{2}; k\in Z$ D) $\frac{\pi}{4}+\pi k+\frac{3}{2}; k\in Z$
E) $-\frac{\pi}{2}+2\pi k; k\in Z$
***Mövzu:*** Triqonometrik tənliklər
***Sinif:*** 10
***Alt-standart:*** 2.3.1 Triqonometrik tənlik və bərabərsizlikləri həll edir.
***İzah:***

$$\sin(2x-3)=1 \Rightarrow 2x-3=\frac{\pi}{2}+2\pi k;\ k\in Z$$

$$\Rightarrow 2x=\frac{\pi}{2}+2\pi k+3;\ k\in Z \Rightarrow x=\frac{\pi}{4}+\pi k+\frac{3}{2};\ k\in Z$$

***Doğru cavab:*** $\frac{\pi}{4}+\pi k+\frac{3}{2}; k\in Z$

**67.** $2x+y=5$ sm olarsa, altıbucaqlının perimetrini tapın.




A) 6 sm B) 12 sm C) 15 sm
D) 10 sm E) 5 sm

***Mövzu:*** Çoxbucaqlılar
***Sinif:*** 9
***Alt-standart:*** 3.1.1. Sınıq xətt və çoxbucaqlı anlayışları bilir, düzgün çoxbucaqlını təsvir edir.
***İzah:***. Verilmiş altıbucaqlının perimetri

$P=x+y+x+x+y+x=4x+2y=2(2x+y)$ olar.

$2x+y=5$ sm olduğundan, $P=10sm$ alınar.

***Doğru cavab:*** 10 sm

**68.** $\frac{m}{10}=\frac{8}{n}$ olarsa, $mn$ hasilini tapın.

A) 60 B) 50 C) 80 D) 20 E) 40

***Mövzu:*** Faiz, nisbət. Tənasüb
***Sinif:*** 6
***Alt-standart:*** 1.2.5. Nisbət, tənasüb, düz mütənasib, tərs mütənasib kəmiyyətlərə və faizə aid sadə məsələləri həll edir.
***İzah:*** Tənasübün əsas xassəsinə görə

$\frac{m}{10}=\frac{8}{n} \Rightarrow mn=10\cdot 8=80$

***Doğru cavab:*** 80

**69.** *ABCD* kvadratının təpələrindən çəkilmiş paralel düz xətlər onun müstəvisinə paralel olan müstəvini, uyğun olaraq, $A_1$, $B_1$, $C_1$ və $D_1$ nöqtələrində kəsir. *AB*=4 sm olarsa, $A_1C_1$ parçasının uzunluğunu tapın.

A) 8 sm B) $4\sqrt{2}$ sm C) $8\sqrt{2}$ sm
D) 12 sm E) $2\sqrt{2}$ sm

***Mövzu:*** Fəzada düz xətlər və müstəvilər
***Sinif:*** 10
***Alt-standart:*** 3.1.2.Fəzada düz xətlərin və müstəvilərin qarşılıqlı vəziyyətinə aid məsələlər həll edir.




***İzah:*** $AB=4$ olduğundan, *ABCD* kvadratının *AC* diaqonalı Pifaqor teoreminə görə $4\sqrt{2}$ olar. Şərtə görə, $A_1B_1C_1D_1$ müstəvisi *ABCD* kvadrat müstəvisinə paralel olduğundan $A_1C_1 \parallel AC$ olar. Onda, $AA_1C_1C$ dördbucaqlısı paraleloqramdır. Paraleloqramın qarşı tərəfləri bərabər olduğu üçün

$A_1C_1=AC=4\sqrt{2}$ alınar.

***Doğru cavab:*** $4\sqrt{2}$

**70.** Elementlərinin sayı bərabər olan *A* və *B* çoxluqları üçün $n(A\cap B)=6$ və $5\cdot n(B\backslash A)=2\cdot n(A\cup B)$ olarsa, $n(B)$ -ni tapın.

A) 24 B) 14 C) 16 D) 10 E) 18

***Mövzu:*** Çoxluqlar
***Sinif:*** 7
***Alt-standart:*** 1.1.4. Çoxluqların birləşməsi və kəsişməsi xassələrini məsələlər həllinə tətbiq edir.




***İzah:*** *A* və *B* çoxluqlarının eyni sayda elementi olduğundan,

$n(A\backslash B)=n(B\backslash A)=x$ olar.

$5\cdot n(B\backslash A)=2\cdot n(A\cup B)$

olduğundan,

$5\cdot x=2\cdot(x+6+x) \Rightarrow$

$5\cdot x=2\cdot(2x+6) \Rightarrow x=12$

olar. Onda,

$n(B)=n(B\backslash A)+n(A\cap B)=$

$=x+6=12+6=18$

***Doğru cavab:*** 18

**71.** Tərəfləri *a, b, c* olan üçbucağın *a* və *b* tərəflərinin qarşısında yerləşən bucaqları, uyğun olaraq, 62° və 68°-dir. Bu üçbucağın tərəfləri arasında hansı münasibət doğrudur?

A) $b>c>a$ B) $a>b>c$ C) $c>a>b$
D) $b>a>c$ E) $a>c>b$

***Mövzu:*** Üçbucaqlar
***Sinif:*** 7
***Alt-standart:*** 3.1.1. Üçbucağın əsas elementləri və onlar arasındakı münasibətləri bilir, həndəsi təsvir edir.
***İzah:*** Tərəfləri *a, b, c* olan üçbucağın *a* və *b* tərəflərinin qarşısında yerləşən bucaqları, uyğun olaraq, 62° və 68° olduğundan, *c* tərəfi qarşısında yerləşən bucaq $180^\circ-(68^\circ+62^\circ)=50^\circ$ olar. Üçbucağın böyük bucağı qarşısında böyük tərəf, kiçik bucağı qarşısında kiçik tərəf yerləşdiyindən, $b>a>c$ olar.

***Doğru cavab:*** $b>a>c$

**72.** $\frac{a^2-9}{3a+9}$ ifadəsini sadələşdirin.

A) $\frac{a-3}{3}$ B) $a+3$ C) $\frac{a+3}{3}$ D) $\frac{a}{3}$ E) $a-3$

***Mövzu:*** Rasional kəsrlər
***Sinif:*** 8
***Alt-standart:*** 2.2.1. Rasional ifadələr üzərində əməlləri yerinə yetirir.
***İzah:***

$\frac{a^2-9}{3a+9}=\frac{a^2-3^2}{3(a+3)}=\frac{(a-3)(a+3)}{3(a+3)}=\frac{a-3}{3}$.

***Doğru cavab:*** $\frac{a-3}{3}$

**73.** $\sin 41^\circ\cdot\cos 11^\circ-\cos 41^\circ\cdot\sin 11^\circ$ ifadəsinin qiymətini hesablayın.

A) $\frac{1}{2}$ B) $-\frac{\sqrt{2}}{2}$ C) $\frac{\sqrt{3}}{2}$ D) $\frac{\sqrt{2}}{2}$ E) $-\frac{1}{2}$

***Mövzu:*** Triqonometrik funksiyalar üçün toplama teoremi
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.3. Triqonometrik funksiyalar üçün toplama düsturlarını, onlardan alınan nəticələri bilir və tətbiq edir.
***İzah:***

$\sin 41° \cdot \cos 11° - \cos 41° \cdot \sin 11° = \sin(41° - 11°) = \sin 30° = \frac{1}{2}$.

***Doğru cavab:*** $\frac{1}{2}$

**74.** Perimetrləri bərabər olan bərabərtərəfli üçbucaqla kvadratın tərəfləri, uyğun olaraq, $x_1$ və $x_2$-dir. $x^2 - 21x + 5a - 7 = 0$ tənliyinin kökləri $x_1$ və $x_2$ olarsa, $a$-nı tapın.

***Mövzu:*** Tənliklər sistemi
***Sinif:*** 7
***Alt-standart:*** 2.2.2. Birdəyişənli xətti tənliyi, modul işarəsi daxilində dəyişəni olan tənliyi və ikidəyişənli iki xətti tənliklər sistemini həll edir.
***İzah:***
Tapşırığın şərtinə və Viyet teoreminə əsasən,

$$\begin{cases} 3x_1 = 4x_2, \\ x_1 + x_2 = 21 \end{cases} \Rightarrow \begin{cases} 3x_1 = 4x_2, \\ 3x_1 + 3x_2 = 63 \end{cases} \Rightarrow 4x_2 + 3x_2 = 63 \Rightarrow x_2 = 9$$

və $x_1 = 12$ alınar. Viyet teoreminə əsasən, $x_1 \cdot x_2 = 5a - 7$ olduğundan, $a = 23$ olar.

***Doğru cavab:*** 23

**75.** $(2\log_{20} 2 + \log_{20} 5)(2\log_{20} 10 - \log_{20} 5)$ ifadəsinin qiymətini hesablayın.

***Mövzu:*** Loqarifmik funksiyalar
***Sinif:*** 10
***Alt-standart:*** 2.2.7. Ədədin loqarifminin tərifini, loqarifmləmə qaydalarını bilir və onları tətbiq edir.
***İzah:***

$$(2\log_{20} 2 + \log_{20} 5)(2\log_{20} 10 - \log_{20} 5) =$$
$$= \left(\log_{20} 2^2 + \log_{20} 5\right)\left(\log_{20} 10^2 - \log_{20} 5\right) =$$
$$= \log_{20}(2^2 \cdot 5) \cdot \log_{20}\frac{10^2}{5} = \log_{20} 20 \cdot \log_{20} 20 = 1$$

***Doğru cavab:*** 1

**76.** Silindrin ox kəsiyi tərəfləri $AB$=12 və $AD$=10 olan düzbucaqlıdır. Bu silindrin həcmini hesablayın $(\pi = 3)$.




***Mövzu:*** Fırlanma cisimləri
***Sinif:*** 11
***Alt-standart:*** 3.2.3. Silindrin yan səthinin, tam səthinin, tam səthinin və həcmlərinin tapılmasına aid məsələlər həll edir.
***İzah:*** Oturacaq çevrəsinin radiusu $r$, hündürlüyü $h$ olan silindrin həcmi $V = \pi r^2 \cdot h$ düsturu ilə hesablanır.
$AB = h = 12$ və $AD = 2r = 10 \Rightarrow r = 5$ olduğundan,
$V = \pi \cdot 5^2 \cdot 12 = 300\pi = 900$

***Doğru cavab:*** 900

**77.** $5^{-2} \cdot \left(\frac{2}{5}\right)^{-4} \cdot \left(2\frac{1}{2}\right)^{-3}$ ifadəsinin qiymətini hesablayın.

***Mövzu:*** Həqiqi üstlü qüvvət
***Sinif:*** 8
***Alt-standart:*** 1.2.2. Tam üstlü qüvvətin xassələrini tətbiq edir.
***İzah:***

$$5^{-2} \cdot \left(\frac{2}{5}\right)^{-4} \cdot \left(2\frac{1}{2}\right)^{-3} = \frac{1}{5^2} \cdot \frac{5^4}{2^4} \cdot \frac{2^3}{5^3} = 0{,}1$$

***Doğru cavab:*** 0,1

**78.** Düzbucaqlının sahəsi $\left(x^2 - 7x + 12\right)$, uzunluğu $(x - 3)$ olarsa, $x$-in ən kiçik tam qiymətini tapın.

***Mövzu:*** Çoxhədlinin vuruqlara ayrılması
***Sinif:*** 7
***Alt-standart:*** 2.2.1. Çoxhədlilər üzərində toplama, çıxma və vurma əməllərini yerinə yetirir.
***İzah:*** Düzbucaqlının sahəsi $\left(x^2 - 7x + 12\right) = (x-3)(x-4)$ və uzunluğu $(x-3)$ olduğundan, bu düzbucaqlının eni $(x-4)$ olar. $\begin{cases} x - 3 > 0, \\ x - 4 > 0 \end{cases} \Rightarrow x > 4$ olar. Deməli, $x$-in ən kiçik tam qiyməti 5-dir.

***Doğru cavab:*** 5

***79 – 85 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

**79.** Diaqonalı 6 sm olan kubun tam səthi ilə yan səthinin sahələri cəmini tapın.

***Mövzu:*** Çoxüzlülər, onların səthi və həcmi
***Sinif:*** 10
***Alt-standart:*** 3.2.3. Prizmanın yan səthinin, tam səthinin və həcminin tapılmasına aid məsələlər həll edir.
***İzah:*** Tili $a$, diaqonalı $d$, yan səthinin sahəsi $S_{yan}$ və tam səthinin sahəsi $S_{tam}$ olan kubda, $d = a\sqrt{3}$, $S_{yan} = 4a^2$ və $S_{tam} = 6a^2$ düsturu ilə hesablanır.

$a\sqrt{3} = 6 \Rightarrow a = \frac{6}{\sqrt{3}} = 2\sqrt{3}$ olar.

Onda, $S_{yan} = 4 \cdot (2\sqrt{3})^2 = 48$ və $S_{tam} = 6 \cdot (2\sqrt{3})^2 = 72$ olduğundan, $S_{yan} + S_{tam} = 120$ (sm$^2$) alınar.

***Doğru cavab:*** 120 (sm$^2$)

**80.** Ata ilə oğlunun yaşları fərqi 24-dür. Atanın yaşını oğlunun yaşına böldükdə natamam qismət 2 və qalıq 3 olarsa, oğulun neçə yaşı var?

***Mövzu:*** Birməchullu tənliklər və məsələlər
***Sinif:*** 7
***Standart:*** 2.1.1. Həyati situasiyaya uyğun xətti və ya ikidəyişənli iki xətti tənliklər sistemini tərtib edir.
***İzah:***
***I üsul:*** Atanın yaşı $x$ olarsa, oğulun yaşı $x - 24$ olar. Onda, $x : (x - 24) = 2(qalıq 3)$ olduğundan,

$x = 2\cdot(x-24)+3 \Rightarrow x = 2x-48+3 \Rightarrow x = 45$ alınar.

Onda, oğulun yaşı $x-24 = 45-24 = 21$ olar.

***II üsul:*** Atanın yaşı *x*, oğulun yaşı *y* olarsa,

$\begin{cases} x-y=24, \\ x=2y+3 \end{cases} \Rightarrow \begin{cases} x=y+24, \\ x=2y+3 \end{cases} \Rightarrow y+24=2y+3 \Rightarrow y=21$.

***Doğru cavab:*** 21

**81.** Cüt sayda həddi olan sonlu ədədi silsilənin cüt yerdə duran hədlərinin cəmi tək yerdə duran hədlərinin cəmindən 204 vahid böyükdür. Silsilənin fərqi 17 olarsa, onun hədlərinin sayını tapın.

***Mövzu:*** Ədədi ardıcıllıqlar. Silsilələr

***Sinif:*** 9

***Alt-standart:*** 2.1.3. Ardıcıllıqların, ədədi və həndəsi silsilələrin xassələrini məsələ həllinə tətbiq edir.

***İzah:***

***I üsul:*** $n = 2k$ sayda həddi və silsilə fərqi $d$ olan $(a_n)$ ədədi silsiləsinin cüt yerdə duran hədlərinin cəmi tək yerdə duran hədlərinin cəmindən 204 vahid böyük olduğundan,

$a_2 + a_4 + ... + a_{2k} - (a_1 + a_2 + ... + a_{2k-1}) = 204$ yazmaq olar. Buradan,

$a_1 + d + a_3 + d + ... + a_{2k-1} + d - (a_1 + a_2 + ... + a_{2k-1}) = 204$

$\Rightarrow k\cdot d = 204$. Silsilə fərqi 17 olduğundan, $k = 12$ alınar. Onda, bu silsilənin $n = 2k = 24$ sayda həddi olar.

***II üsul:*** $n = 2k$ sayda həddi və silsilə fərqi $d$ olan $(a_n)$ ədədi silsiləsinin *k* sayda həddi cüt, *k* sayda həddi isə tək yerdə durur. Cüt yerdə duran hədlər və tək yerdə duran hədlər ədədi silsilə təşkil edən iki ardıcıllıq əmələ gətirdiyindən, ilk *k* həddin cəm düsturuna əsasən

$\frac{a_2 + a_{2k}}{2}\cdot k - \frac{a_1 + a_{2k-1}}{2}\cdot k = 204$

$\frac{a_2 + a_{2k} - (a_1 + a_{2k-1})}{2}\cdot k = \frac{a_2 - a_1 + a_{2k} - a_{2k-1}}{2}\cdot k =$

$= \frac{d+d}{2}\cdot k = d\cdot k$ olar. Onda, $17\cdot k = 204 \Rightarrow k = 12$ olduğundan, bu ədədi silsinənin 24 həddi olar.

***III üsul:*** $n = 2k$ sayda həddi və silsilə fərqi $d$ olan $(a_n)$ ədədi silsiləsinin *k* sayda həddi cüt, *k* sayda həddi isə tək yerdə durur. Cüt yerdə duran hədlər və tək yerdə duran hədlər ədədi silsilə təşkil edən iki ardıcıllıq əmələ gətirir. Ədədi silsilənin ilk *k* həddinin cəm düsturuna əsasən,

$\frac{2a_2 + d(k-1)}{2}\cdot k - \frac{2a_1 + d(k-1)}{2}\cdot k = 204 \Rightarrow$

$\frac{2a_2 + d(k-1) - 2a_1 - d(k-1)}{2}\cdot k = 204 \Rightarrow$

$\frac{2a_2 - 2a_1}{2}\cdot k = \frac{2(a_2 - a_1)}{2}\cdot k = (a_2 - a_1)\cdot k = d\cdot k = 204$

alınar. Onda, $17\cdot k = 204 \Rightarrow k = 12$ olduğundan, bu ədədi silsinənin 24 həddi olar.

***Doğru cavab:*** 24

**82.** Qaçış yolu uyğun tərəfləri bir-birinə paralel olan iki üçbucaq formalı sahə (*ABC* və *DEF*) ilə hüdudlanmışdır. Bu yolun bütün kənarları boyunca *A* və *D* təpələrindən başlayaraq aralarındakı məsafə 5 metr olmaqla ağaclar əkilmişdir. $AB = 160$ m, $AC = 180$ m, $BC = 200$ m və $DF = 45$ m olarsa, əkilmiş bütün ağacların sayını tapın.




***Mövzu:*** Hərəkət. Oxşarlıq

***Sinif:*** 8

***Alt-standart:*** 1.2.5. Nisbət və tənasüb xassələrini, faizin düsturlarını müxtəlif məsələlərin həllində tətbiq edir.

***İzah: I üsul:*** *ABC* və *DEF* üçbucaqlarının uyğun tərəfləri paralel olduğundan, $\Delta ABC \sim \Delta DEF$ olar. Üçbucaqların perimetrləri, uyğun olaraq, $P_{\Delta ABC}$ və $P_{\Delta DEF}$ olarsa, bu üçbucaqların oxşarlığına əsasən $\frac{P_{\Delta ABC}}{P_{\Delta DEF}} = \frac{AC}{DF}$ olar.

$P_{\Delta ABC} = 160 + 180 + 200 = 540$ (m), $AC = 180$ m və $DF = 45$ m olduğundan, $\frac{540}{P_{\Delta DEF}} = \frac{180}{45}$

$\Rightarrow P_{\Delta DEF} = 135$ (m)

olar. *ABC* və *DEF* kənarları boyunca, uyğun olaraq,

$\frac{P_{\Delta ABC}}{5} = \frac{540}{5} = 108$ və

$\frac{P_{\Delta DEF}}{5} = \frac{135}{5} = 27$ sayda ağac əkilmiş olar. Onda, əkilmiş bütün ağacların sayı $108 + 27 = 135$ alınır.

***II üsul:*** *ABC* və *DEF* üçbucaqlarının uyğun tərəfləri paralel olduğundan, $\Delta ABC \sim \Delta DEF$ olar. Onda,

$\frac{AB}{DE} = \frac{AC}{DF} = \frac{BC}{EF}$ olar. Tapşırığın şərtində $AB = 160$ m, $AC = 180$ m, $BC = 200$ m və $DF = 45$ m olduğundan, $DE = 40$ m və $EF = 50$ m alınar. Üçbucaqların perimetrləri, uyğun olaraq, $P_{\Delta ABC}$ və $P_{\Delta DEF}$ olarsa,

$P_{\Delta ABC} = 160 + 180 + 200 = 540$ (m) və

$P_{\Delta DEF} = 40 + 45 + 50 = 135$ (m) alınar.

*ABC* və *DEF* kənarları boyunca, uyğun olaraq,

$\frac{P_{\Delta ABC}}{5} = \frac{540}{5} = 108$ və $\frac{P_{\Delta DEF}}{5} = \frac{135}{5} = 27$ sayda ağac əkilmiş olar. Onda, əkilmiş bütün ağacların sayı $108 + 27 = 135$ alınır.

***Doğru cavab:*** 135

**83.** $y = x^2 - 6x + b$ parabolasının təpə nöqtəsindən koordinat başlanğıcına qədər məsafə $3\sqrt{5}$ olarsa, *b* parametrinin kiçik qiymətini tapın.

***Mövzu:*** Funksiyalar və qrafiklər

***Sinif:*** 9

***Alt-standart:*** 3.2.3. Verilmiş iki nöqtə arasındakı məsafə düsturunu bilir, mərkəzinin koordinatlarına və radiusuna görə çevrənin tənliyini yazır.

2.2.2. Funksiyanın qrafiki anlayışını bilir, funksiyanın dövrülüyünü, təkliyini, cütlüyünü, monotonluğunu araşdırır, qrafikləri çevirməyi bacarır.

***İzah:*** ***I üsul:*** Təpə nöqtəsi $(m;n)$ olan $y=ax^2+bx+c$ parabolası üçün $y=ax^2+bx+c=a(x-m)^2+n$ -dir.

$y=x^2-6x+b=(x-3)^2+b-9$ olduğundan, parabolanın təpə nöqtəsi $(3;b-9)$ olar. Bu nöqtədən $(0;0)$ nöqtəsinə qədər məsafə $3\sqrt{5}$ olduğundan, iki nöqtə arasındakı məsafə düsturuna əsasən $\sqrt{(3-0)^2+(b-9-0)^2}=3\sqrt{5}$

$$\Rightarrow \sqrt{9+(b-9)^2}=3\sqrt{5} \Rightarrow 9+(b-9)^2=45 \Rightarrow$$

$$(b-9)^2=36 \Rightarrow |b-9|=6 \Rightarrow \left[\begin{array}{l} b-9=6, \\ b-9=-6 \end{array}\right. \Rightarrow \left[\begin{array}{l} b=15, \\ b=3 \end{array}\right.$$

alınar. Buradan, $b$ parametrinin kiçik qiyməti 3 olar.

***II üsul:*** Təpə nöqtəsi $(m;n)$ olan $y=ax^2+bx+c$ parabolası üçün $y=ax^2+bx+c=a(x-m)^2+n$ -dir.

$y=x^2-6x+b=(x-3)^2+n$ şəklində yazmaq olar.

Buradan, parabolanın təpə nöqtəsi $(3;n)$ olar. Bu nöqtədən $(0;0)$ nöqtəsinə qədər məsafə $3\sqrt{5}$ olduğundan, iki nöqtə arasındakı məsafə düsturuna əsasən

$$\sqrt{(3-0)^2+(n-0)^2}=3\sqrt{5} \Rightarrow$$

$$\sqrt{9+n^2}=3\sqrt{5} \Rightarrow 9+n^2=45 \Rightarrow n^2=36$$

$\Rightarrow |n|=6 \Rightarrow \left[\begin{array}{l} n=6, \\ n=-6 \end{array}\right.$ alınar. $y=ax^2+bx+c$ parabolasının təpə nöqtəsinin ordinatı $-\dfrac{b^2-4ac}{4a}$ düsturu ilə hesablandığından,

$$\left[\begin{array}{l} -\dfrac{6^2-4\cdot1\cdot b}{4\cdot1}=6, \\ -\dfrac{6^2-4\cdot1\cdot b}{4\cdot1}=-6 \end{array}\right. \Rightarrow \left[\begin{array}{l} \dfrac{36-4b}{4}=-6, \\ \dfrac{36-4b}{4}=6 \end{array}\right. \Rightarrow \left[\begin{array}{l} b=15, \\ b=3 \end{array}\right. \text{alınar.}$$

Buradan, $b$ parametrinin kiçik qiyməti 3 olar.

***Doğru cavab:*** 3

**84.** Mərkəzi $O$ nöqtəsində olan çevrənin kəsişən iki vətərindən biri uzunluqları 48 sm və 3 sm olan iki parçaya bölünmüşdür. Digər vətər 1:4 nisbətində bölünərsə, bu vətərin uzunluğunu tapın.

***Mövzu:*** Çevrə və dairə

***Sinif:*** 6, 9

***Alt-standart:*** 3.1.4. Çevrə və dairənin elementlərini (vətər, seqment, sektor, mərkəzi bucaq) bilir, onların xassələrini tətbiq edir.

***İzah:*** Tapşırığın şərtinə uyğun vətərlər $AB$ və $CD$, onların kəsişmə nöqtəsi isə $E$ olsun. $AE=48$, $BE=3$, $CE=x$ və $DE=4x$ olarsa, iki kəsişən vətər haqqında teoremə əsasən, $AE\cdot BE=CE\cdot DE$ olar.




Buradan,

$48\cdot3=x\cdot4x \Rightarrow x=6$ olar. Onda,

$DC=CE+DE=30$ (sm) alınar.

***Doğru cavab:*** 30 sm

**85.** Cədvəldə riyaziyyat və fizika fənləri üzrə olimpiadalarda iştirak edən şagirdlərin sayları göstərilmişdir. Hər fənn üzrə bir qalib olarsa, bu qaliblərin riyaziyyat fənni üzrə oğlan, fizika fənni üzrə qız şagird olması hadisəsinin ehtimalını tapın.

| | Riyaziyyat | Fizika |
|---|---|---|
| Oğlan | $y$ | $5y$ |
| Qız | $3x$ | $x$ |
| Cəmi | 14 | 14 |

***Mövzu:*** Ehtimal nəzəriyyəsi

***Sinif:*** 8

***Alt-standart:*** 5.2.3. Ehtimalların hesablanmasına aid məsələlərdə vurma qaydasını tətbiq edir.

***İzah:*** Tapşırığın şərtinə əsasən,

$$\begin{cases} y+3x=14, \\ 5y+x=14 \end{cases} \Rightarrow y+3x=5y+x \Rightarrow x=2y$$

$y+3\cdot2y=14$

$7y=14$

$y=2 \Rightarrow x=4$

Hər fənn üzrə bir qalib olmaqla, bu qaliblərin riyaziyyat fənni üzrə oğlan olması hadisəsinin ehtimalı $P_1=\dfrac{2}{14}=\dfrac{1}{7}$, fizika fənni üzrə qız şagird olması hadisəsinin ehtimalı $P_2=\dfrac{4}{14}=\dfrac{2}{7}$ olduğundan, verilmiş hadisənin ehtimalı $P=P_1\cdot P_2=\dfrac{1}{7}\cdot\dfrac{2}{7}=\dfrac{2}{49}$ alınar.

***Doğru cavab:*** $\dfrac{2}{49}$

## Русский язык (tədris dili)

**31.** Укажите ***ошибку*** в определении оттенков значений частицы.

A) именно (уточняющая)
B) разве (вопросительная)
C) точно (усилительная)
D) вон (указательная)
E) как (восклицательная)

**Тема**: Частицы

**Класс**: 7, 10

**Подстандарт:**

7 кл. 4.1.2. Различает слова по их общему грамматическому значению.

10 кл. 4.1.2. Соблюдает лексико-семантические и грамматические нормы языка.

**Объяснение**: Модальные частицы вносят различные оттенки значений в предложение: вопросительные (*разве*), указательные (*вон*), уточняющие (*именно*), восклицательные (*как*), утвердительные (*точно*).

**Верный ответ**: точно (усилительная)

**32.** Переходными глаголами являются

A) прыгнуть, осветить
B) сбить, видеть
C) диктовать, блестеть
D) трещать, успеть
E) сбрить, зависеть

**Тема**: Глагол
**Класс**: 6, 10
**Подстандарт:**
7 кл. 4.1.2. Различает слова по их общему грамматическому значению.
10 кл. 4.1.2. Соблюдает лексико-семантические и грамматические нормы языка.
**Объяснение**: Глаголы, которые могут управлять существительными или местоимениями в винительном падеже без предлога, называются переходными (от таких глаголов можно задать вопрос *что*?/*кого*?): *осветить*, *сбить*, *видеть*, *диктовать*, *успеть*, *сбрить*.
**Верный ответ**: сбить, видеть

**33.** Укажите предложение с союзом *тоже*.
A) Луга окрасились в бурый цвет, в городе то(же) все краски поблекли.
B) Увидел он то(же) самое озеро вдали.
C) Молчание то(же), что и тьма.
D) На лице его обозначилось то(же) выражение, что и всегда.
E) Обратный путь доставлял ему то(же) удовольствие, что и вчера.
**Тема**: Сопоставительные задания
**Класс**: 7, 10
**Подстандарт:**
6 кл. 4.1.2. Объясняет грамматическое значение слова согласно контексту.
7 кл. 4.1.2. Различает слова по их общему грамматическому значению.
7 кл. 4.1.4. Следует правилам правописания частей речи.
10 кл. 4.1.2. Соблюдает лексико-семантические и грамматические нормы языка.
**Объяснение**: Союз *тоже* является сочинительным соединительным союзом (его можно заменить союзом *и*). *Луга окрасились в бурый цвет, и в городе все краски поблекли.*
**Верный ответ**: Луга окрасились в бурый цвет, в городе то(же) все краски поблекли.

**34.** В каком ряду на месте пропусков во всех словах пишется *нн*?
A) обеде…ый перерыв, ветре…ый юноша, засея…ое поле
B) копчё…ая рыба, асфальтирова…ая дорога, говорить пута…о
C) восторже…о смотреть, беше…о мчаться, взволнова…о ветром
D) пря…ый аромат, связа…ый свитер, появился нежда…о
E) торжестве…о обещать, изыска…ые манеры, време…ые трудности
**Тема**: Орфография (*н*, *нн*)
**Класс**: 6, 7, 10
**Подстандарт:**
6 кл. 4.1.2. Объясняет грамматическое значение слова согласно контексту.
7 кл. 4.1.2. Различает слова по их общему грамматическому значению.
7 кл. 4.1.4. Следует правилам правописания частей речи.
10 кл. 4.1.2. Соблюдает лексико-семантические и грамматические нормы языка.
**Объяснение**: Две буквы *н* пишутся в прилагательных с суффиксами *-енн-*/*-онн-*, образованных от существительных (*обеденный* ← *обед*; исключение – *ветреный* ← *ветер*); в полных страдательных причастиях совершенного вида (*засеянное* ← *засеять*, *связанный* ← *связать*, *изысканный* ← *изыскать* /+ в значении «*утончённый, изящный*»/); в прилагательных с суффиксами *-ова-*/*-ева-*/*-ёва-* , образованных от глагола (*асфальтированная* ← *асфальтировать*); в прилагательных, образованных от разносклоняемых существительных (*временный* ← *времена* ← *время*); в наречиях на *о*/*е* пишется столько же *н*, сколько в прилагательных и причастиях, от которых они образованы (*восторженно* ← *восторженный*, *нежданно* ← *нежданный*, *торжественно* ← *торжественный*).
**Верный ответ**: торжестве…о обещать, изыска…ые манеры, време…ые трудности

**35.** Окончание выражает грамматическое значение рода в слове
A) халва B) перила C) румяна
D) чернила E) дрова
**Тема**: Морфемика
**Класс**: 5, 6, 10
**Подстандарт:**
5 кл. 4.1.2. Объясняет звуковой состав, лексические особенности слов, способы их образования и грамматическое значение слов.
10 кл. 4.1.2. Соблюдает лексико-семантические и грамматические нормы языка.
**Объяснение**: Окончание выражает значение рода, числа, падежа, лица. Существительные *перила*, *румяна*, *чернила*, *дрова* имеют форму только множественного числа и не имеют рода. Существительное *халва* единственного числа женского рода с окончанием *-а*
**Верный ответ**: халва

**36.** В каком слове произносится звук [з]?
A) резкий B) смазка C) сборка
D) подсказка E) рассказ
**Тема**: Фонетика
**Класс**: 5, 10
**Подстандарт:**
5 кл. 4.1.2. Объясняет звуковой состав, лексические особенности слов, способы их образования и грамматическое значение слов.
**Объяснение**: В русском языке слова подчиняются определённым правилам произношения. В позициях на конце слова и перед глухим согласным парные звонкие согласные меняются на глухие (оглушаются): *расска*[*с*], *ре*[*с*]*кий, сма*[*с*]*ка, подска*[*с*]*ка*; парные глухие согласные в позиции перед парными звонкими меняются на парные звонкие (озвончаются): [*з*]*борка*.
**Верный ответ**: сборка

**37.** В каких предложениях есть наречия?
1. Огромный букет стоял на деревянном столе.
2. Во дворе громко разговаривали незнакомые люди.
3. Вначале мы поговорили о предстоящей поездке.
4. Комнатным растениям всегда нужно хорошее освещение.
5. Мама накануне праздника подарила мне кольцо.
A) 1, 2, 4 B) 3, 4, 5 C) 2, 5
D) 2, 3, 4 E) 1, 3
**Тема**: Наречие
**Класс**: 7, 10

**Подстандарт:**
7 кл. 4.1.2. Различает слова по их общему грамматическому значению.
10 кл. 4.1.2. Соблюдает лексико-семантические и грамматические нормы языка.
**Объяснение**: Наречие – самостоятельная часть речи, которая отвечает на вопросы: *где*? *когда*? *куда*? *откуда*? *почему*? *зачем*? *как*? и другие. Наречия не изменяются, не имеют окончания. В предложениях «*Во дворе громко разговаривали незнакомые люди.*», «*Вначале мы поговорили о предстоящей поездке.*», «*Комнатным растениям всегда нужно хорошее освещение.*» слова *громко* (*как?*), *вначале* (*когда?*), *всегда* (*когда?*) являются наречиями.
**Верный ответ**: 2, 3, 4

**38.** Какое из слов может выступать как в роли простого глагольного сказуемого, так и являться глаголом-связкой в составном именном сказуемом?
A) шил B) читал C) скитался
D) просился E) был

**Тема**: Простое предложение (главные и второстепенные члены предложения)
**Класс**: 8, 11
**Подстандарт:** 8 кл. 4.1.2 Определяет синтаксическое назначение слов и словосочетаний
11 кл. 4.1.1. Целенаправленно использует предложения различных конструкций.
**Объяснение**: Глагол *был* со значением существования может выступать в роли простого глагольного сказуемого. Также данный глагол может выступать в роли глагола-связки в составном именном сказуемом.
**Верный ответ**: был

**39.** Укажите предложения с сочинительной связью между частями:
1. Когда человек свободен, ему не нужно никого бояться.
2. Чтобы перейти речку, нам понадобилась большая палка.
3. По утрам в лесу или слышатся птичьи песни, или шелестит зелёная трава.
4. Ночь тянулась медленно, будто ей не будет конца.
5. Тёплый ветерок то гулял в ветвях деревьев, то он шумел в камышах, однако он совсем не затихал.

A) 3, 5 B) 2, 3 C) 2, 4 D) 4, 5 E) 1, 5

**Тема**: Сложносочинённые предложения
**Класс**: 9, 11
**Подстандарт:**
7 кл. 4.1.1. Различает предложения по их структуре.
9 кл. 4.1.1. Различает виды сложных предложений.
**Объяснение**: Между частями сложного предложения существует синтаксическая связь: союзная и бессоюзная. Союзные сложные предложения бывают сложносочинёнными и сложноподчинёнными. Сложносочинёнными называются сложные предложения, части которых независимы, равноправны по смыслу и соединены сочинительными союзами (*и, а, но, то — то, или* ... ). В сложных предложениях «*По утрам в лесу или слышатся птичьи песни, или шелестит зелёная трава.*», «*Тёплый ветерок то гулял в ветвях деревьев, то он шумел в камышах, однако он совсем не затихал.*» части равноправны и связаны сочинительными союзами: *или, то — то, однако.*
**Верный ответ**: 3, 5.

**40.** К одному типу склонения относятся существительные
A) село, умница B) подмастерье, хлеб
C) путь, дядя D) миндаль, дуэль
E) дедушка, время

**Тема**: Имя существительное
**Класс**: 5, 6, 10
**Подстандарт:**
5 кл. 4.1.2. Объясняет звуковой состав, лексические особенности слов, способы их образования и грамматическое значение слов (имена, признаки и действия).
7 кл. 4.1.2. Различает слова по их общему грамматическому значению.
10 кл. 4.1.2. Соблюдает лексико-семантические и грамматические нормы языка.
**Объяснение**: Существительные относятся к одному из трёх склонений. К первому склонению относятся существительные мужского (*дядя, дедушка*) и женского рода, а также существительные общего рода (*умница*) с окончанием *-а, -я*. Ко второму склонению относятся существительные мужского рода с нулевым окончанием (*хлеб, миндаль*) и слово *подмастерье*, а также существительные среднего рода с окончанием *-о, -е, -ё* (*село*). К третьему склонению относятся существительные женского рода с нулевым окончанием (*дуэль*). Существительные *путь, время* относятся к разносклоняемым.
**Верный ответ**: подмастерье, хлеб

***Прочитайте текст и выполните задания 41 – 50.***

**Детское воспоминание**

1. Мы с моим приятелем, доктором Субботиным, долго ходили по праздничным улицам. 2. Я очень любил общество доктора. 3. Он был прекрасным собеседником. 4. Мы сели на скамейку. 5. Вечерело. 6. В прозрачном воздухе чувствовалась весенняя свежесть. 7. Мной овладела острая, сладкая *грусть*. 8. Словно отзываясь на мои мысли, Субботин заговорил как обычно тихим, умиротворяющим голосом: «Каждый раз в пасхальную ночь я вспоминаю об одном событии из детства».

9. Мне шёл восьмой год. 10. Мы жили в Москве. 11. Нас, детей, было трое: я и Зинаида – почти ровесники, и старшая – Надежда. 12. На Пасху возвратился из путешествия её жених – Николай. 13. Из Японии он привёз невесте миниатюрную бронзовую *пагоду*, дверцы которой были растворены настежь, а внутри находился фарфоровый человечек с качающейся головой. 14. … 15. Она очень дорожила подарком.

16. Наступил день свадьбы. 17. В зале были открыты окна, отчего было очень светлее. 18. Надежда сказала, что ей холодно. 19. Я в один миг побежал за платком в комнату. 20. Она крикнула: «Только ничего не трогай на комоде!» 21. Я нашёл платок и уже вышел из дверей комнаты, как вдруг за моей спиной раздался треск бьющегося фарфора. 22. Я обернулся и увидел японскую пагоду на полу и рядом с ней разбитую фарфоровую фигурку. 23. Как могло так случиться, я не понимал.

24. Надежда, услышав, забежала и заорала: «Что ты сделал?!» 25. «Посмотри, отец, что стряслось, – плакала она. 26. – Это сделал твой сын!» 27. «Зачем ты сломал статуэтку?» – спросил отец строгим голосом. 28. Я ответил, заикаясь: «Честное слово, это не моя вина. 29. Я до неё даже не дотрагивался. 30. Она упала, когда я выходил». 31. «Он нас обманывает, специально *вводит в заблуждение*!» – крикнула Надежда. 32. … папа сказал, чтобы я попросил у сестры извинения. 33. «Но статуэтка упала сама», – упрямо говорил я.

34. Меня лишили праздника. 35. Я убежал в свою комнату и долго не мог успокоиться из-за незаслуженной клеветы. 36. Доктор помолчал и добавил: «Всегда это воспоминание о первой людской несправедливости вызывает во мне противоречивые чувства, однако я не держу зла на родных».

**41.** Какие способы использованы для разъяснения лексического значения слов соответственно?
1. *“грусть” – печаль, уныние*
2. *“пагода” – буддийский или индуистский храм, хранилище религиозных реликвий*

A) 1 – подбор синонимов;
 2 – раскрытие значения частей слова
D) trugen
E) tragen

**Alt-standart:** 8 – 3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Feilin zaman formaları
**İzah:** *Bu test tapşırığında verilmiş cümləni tamamlamaq tələb olunur. Bildiyimiz kimi, qrammatik qaydaya əsasən modal feillərlə cümlə qurulduqda əsas feillər məsdər formasında cümlənin sonunda işlədilir. Buna əsasən "**tragen**" qeyd olunan bənd tapşırığın **doğru cavabıdır**.*

**17.** Wählen Sie die richtige Form im Präsens-Passiv des gegebenen Satzes aus.
*Meine Schwester räumt das Zimmer auf.*
A) Das Zimmer ist aufgeräumt worden.
B) Meine Schwester wird das Zimmer aufräumen.
C) Meine Schwester hat das Zimmer aufgeräumt.
D) Das Zimmer wird von meiner Schwester aufgeräumt.
E) Das Zimmer wurde von meiner Schwester aufgeräumt.

**Alt-standart:** 9 – 4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır.
**Bölmə:** Məchul növ
**İzah:** *Bu test tapşırığında verilmiş cümlənin indiki zamanda işlənmiş məchul növünü təyin etmək tələb olunur. Präsens (indiki) zaman formasında feilin məchul növünü düzəltmək üçün "werden+Partizip II" strukturundan istifadə olunur. Tapşırıqdakı "das Zimmer" sözü təkdə olduğuna görə köməkçi feil "werden" feili də təkdə olmalıdır. Cümlədəki "aufräumen" feilinin Partizip II forması "aufgeräumt" olur. Beləliklə, tapşırığın **doğru cavabı "Das Zimmer wird von meiner Schwester aufgeräumt**" qeyd olunan bənddir.*

**18.** Welche Variante bildet einen Fragesatz?
1. du
2. diesen Film
3. schon
4. hast
5. gesehen

A) 5, 2, 4, 1, 3  B) 4, 1, 3, 2, 5
C) 1, 2, 5, 3, 4  D) 2, 3, 4, 1, 5
E) 4, 3, 5, 1, 2

**Alt-standart:** 5 – 4.1.1. Verilmiş sözləri məna və qrammatik cəhətdən əlaqələndirərək cümlələr qurur.
**Bölmə:** Cümlədüzəltmə
**İzah:** *Bu test tapşırığında verilmiş sözləri ardıcıl sıralamaqla sual sözsüz sual cümləsi qurmaq tələb olunur. Verilmiş sözlərin düzgün ardıcıllığı* ***4, 1, 3, 2, 5, (Hast du schon diesen Film gesehen?)*** *kimidir və bu ardıcıllıq olan bənd test tapşırığının* ***doğru cavabıdır****.*

**19.** Wählen Sie die richtige Antwort aus.
*Der Bus hat ... Verspätung, wenn es schneit.*
A) seitdem  B) früher  C) immer
D) gestern  E) vorgestern

**Alt-standart:** 8 – 3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Zərf
**İzah:** *Bu test tapşırığında uyğun zaman zərfini seçmək tələb olunur. Tapşırıqdakı "Qar yağanda avtobus ... gecikir" cümləsindən aydın olur ki, qar yağanda avtobus gecikir. Verilmiş bəndlər arasından yalnız "**həmişə-immer"** zərfi boşluğa uyğun gəlir. Buna görə də tapşırığın doğru cavabı "**immer**" zərfinin qeyd olunduğu bənddir.*

**20.** Wählen Sie die richtige Konjunktion aus.
*… sie eine gute Übersetzerin ist, verdient sie sehr wenig.*
A) Denn  B) Obwohl  C) Deshalb
D) Aber  E) Trotzdem

**Standart:** 8 – 3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Bağlayıcı
**İzah:** *Bu test tapşırığında verilmiş cümləni müvafiq bağlayıcı ilə tamamlamaq tələb olunur. " ... sie eine gute Übersetzerin ist, verdient sie sehr wenig – o, yaxşı tərcüməçi olmasına ..., çox az pul qazanır" fikrindən aydın olur ki, o, yaxşı tərçüməçidir, amma az pul qazanır. Verilmiş cümlədə "gözlənilməz nəticə" ifadə olunduğu məlum olur. "Gözlənilməz nəticə"ni verilmiş bəndlər arasından "obwohl-baxmayaraq" ifadə edir. Bildiyimiz kimi, "obwohl" bağlayıcıs ilə cümlə qurulduqda feil cümlənin sonunda işlənir. Beləliklə, test tapşırığının* ***doğru cavabı "obwohl****" bağlayıcısının qeyd olunduğu bənddir.*

**21.** Wählen Sie das richtige Pronomen aus.
*Entschuldigung, diese Übung ist zu schwer und wir können sie nicht lösen. Helfen Sie ... bitte!*
A) uns  B) dir  C) sich  D) ihn  E) mich

**Alt-standart:** 8 – 3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Əvəzlik
**İzah:** *Bu tapşırıq əvəzlik bölməsinə aiddir. Qrammatik qaydaya əsasən şəxs əvəzlikləri feilin tələb etdiyi hala uyğun olaraq dəyişirlər. Tapşırıqda "helfen" feili ismin Dativ (yönlük) halını tələb etdiyi üçün "wir-biz" şəxs əvəzliyi Dativ halında "uns" olur. Buna əsaən tapşırığın* ***doğru cavabı "uns****" əvəzliyinin qeyd olunduğu bənddir.*

**22.** Wählen Sie die richtige Antwort aus.
*… Studenten diskutierten … ganzen Abend.*
A) Das, der  B) Der, des  C) Die, den
D) Der, dem  E) Den, die

**Alt-standart:** 8 – 3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Artikl
**İzah:** *Verilmiş test tapşırığında müvafiq artiklləri seçmək tələb olunur. Test tapşırığındakı "Studenten" sözü cəmdədir, çünki "diskutierten" feilin Präteritum (keçmiş zaman) zaman formasında cəmdə işlənib. Buna əsasən birinci boşluğa cəm artikli "die" uyğun gəlir. "... Studenten diskutierten ... ganzen Abend - tələbələr bütün axşamı müzakirə apardılar" cümləsində "Abend" sözü*

*kişi cinsində olduğuna görə buradakı "bütün gecəni" ifadəsi ismin Akkusativ (təsirlik) halındadır. Qarmmatika qaydaya əsasən "der" artikli Akkusativ halında "den" olur. Beləliklə, tapşırığın* ***doğru cavabı*** *"**Die, den**" müəyyən artikllərin qeyd olduğunu bənddir.*

***Lesen Sie den Text und antworten Sie auf die Fragen 23 – 30.***

Die Menschen in Deutschland sitzen zu viel. Das haben die Forscher der Sporthochschule Köln bestimmt, die eine Untersuchung dazu durchgeführt haben. Sie warnen davor, dass langes Sitzen negative Folgen für die Gesundheit haben kann.

Nach dem aktuellen Bericht sitzen die Deutschen im Durchschnitt mehr als 9 Stunden pro Tag. Das sind etwa 30 Minuten mehr als in den letzten Jahren. Die meiste Zeit sitzen die Menschen bei der Arbeit, beim Autofahren oder zu Hause – zum Beispiel vor dem Fernseher oder mit dem Handy.

Ingo Froböse, eine der Kölner Wissenschaftler, erklärt, dass jeder Mensch, der lange sitzt, riskiert gesundheitliche Probleme. Zu diesen Problemen gehören Typ-2-Diabetes, Übergewicht und Bluthochdruck. Frau Froböse fordert deshalb, dass sich die Menschen im Alltag wieder mehr bewegen. Dafür braucht man mehr Möglichkeiten und Angebote.

Die Untersuchung, bei der knapp 3.000 Erwachsene befragt wurden, zeigt außerdem, dass nur ein kleiner Teil der Bevölkerung wirklich gesund lebt. Ein gesundes Leben bedeutet, regelmäßig Sport zu treiben, sich gesund zu ernähren, auf Alkohol und Zigaretten zu verzichten und Stress zu vermeiden. Im vergangenen Jahr lebten nur 17 Prozent der Deutschen nach diesen Kriterien. Allerdings zeigt die Untersuchung auch, dass die Menschen in der modernen Zeit ihre Ernährung beachten.

**23.** Wählen Sie den richtigen Satz dem Text entsprechend aus.
A) Nach der Untersuchung lebt die Mehrheit der Weltbevölkerung gesund.
B) Langes Sitzen kann gesundheitliche Probleme verursachen.
C) Die Hälfte der Deutschen treibt täglich Sport.
D) Langes Sitzen ist laut Forschern nicht schädlich für die Gesundheit.
E) Nur die Deutschen ernähren sich im Alltag gesund.

**Alt-standart:** 8- 3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.

**İzah:** *Bu test tapşırığında verilmiş fikirlər arasından mətnə əsasən doğru fikri seçmək tələb olunur. Mətndən aydın olur ki, həm aparılmış tədqiqatın nəticəsi, həm də tədqiqatçı İnqo Froböze göstərir ki, uzun müddət oturaq həyat sürmək sağlamlıq problemlərinin yaranmasına səbəb olur. Buna əsasən "**Langes Sitzen kann gesundheitliche Probleme verursachen**" fikrinin qeyd olunduğu bənd test tapşırığının* ***doğru cavabıdır****.*

**24.** Wählen Sie die ***falsche*** Variante dem Text entsprechend aus.
A) Die Deutschen sitzen täglich mehr als 9 Stunden.
B) Die Untersuchung wurde von den Forschern der Sporthochschule Köln durchgeführt.
C) Viele Menschen sitzen meistens bei der Arbeit, beim Autofahren oder zu Hause.
D) Langes Sitzen kann das Übergewicht verursachen.
E) Im letzten Jahr hatten 50 Prozent der Deutschen das Übergewichtsproblem.

**Alt-standart:** 8 – 3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.

**İzah:** *Bu test tapşırığında mətnə əsasən verilmiş yanlış fikri təyin etmək tələb olunur. Mətndə qeyd olunur ki, tədqiqatçılar aparılmış tədqiqata əsasən belə bir nəticəyə gəliblər ki, uzun müddət oturmaq xəstəliklərin yaranmasına səbəb ola bilər. Bu xəstəliklər sırasına artıq çəki də daxildir. Verilmiş bəndlər arasından "**Im letzten Jahr hatten 50 Prozent der Deutschen das Übergewichtsproblem**" fikrindən aydın olur ki, keçən il almanların 50 faizinin artıq çəki problemi olub. Ancaq mətində keçən il neçə faiz almanın çəki problemi olmasını göstərən fikir yoxdur. Buna əsasən qeyd olunan bu fikir mətnə əsasən yanlış olduğu üçün tapşırığın* ***doğru cavabı*** *hesab edilir.*

**25.** Finden Sie richtige Antwort auf die gestellte Frage.
*Was fordert Ingo Froböse?*
A) Mehr Bewegungen im Alltag
B) Verschiedene Untersuchungen
C) Mehr Pausen beim Fernsehen
D) Kürzere Arbeitszeiten im Büro
E) Mehr Berichte über langes Sitzen

**Alt-standart:** 7 – 3.1.4. Mətnin məzmununa uyğun suallara cavab verir.

**İzah:** *Bu test tapşırığında mətnə əsasən verilmiş sualın doğru cavabını təyin etmək tələb olunur. Mətndə tədqiqatçı İnqo Froböze insanların gündəlik həyatlarında daha çox hərəkət etməsini tələb edir. Buna əsasən „**Mehr Bewegungen im Alltag**" fikrinin qeyd olunduğu bənd tapşırığın* ***doğru cavabıdır****.*

**26.** Worum geht es im Text?
A) Um die Ernährung von Erwachsenen
B) Um das Studium an der Sporthochschule Köln
C) Um die Folgen des langen Sitzens
D) Um das Übergewicht in Deutschland
E) Um Sportangebote in Deutschland

**Alt-standart:** 7 – 3.1.4. Mətndəki əsas fikri müəyyən edir.

**İzah:** *Oxuyub-anlama bacarığını yoxlayan bu test tapşırığında mətndə söhbətin nədən getdiyi soruşulur. Mətni diqqətlə oxuduqda söhbətin uzun müddət oturmağın fəsadlarından getdiyi məlum olur. Beləliklə, "**Um die Folge des langen Sitzens**" fikrinin qeyd olunduğu bənd tapşırığın doğru cavabıdır.*

***Erfüllen Sie die Aufgaben 27 – 30 " auf dem Blatt für die Antworten ".***

**27.** Finden Sie im Text das Antonym zum Wort "*positiv*".
**Alt-standart:** 7 – 1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir.
**İzah:** *Açıq tipli bu test tapşırığında verilmiş sifətin mətndəki antonimini yazmaq tələb olunur. Tapşırığın* ***doğru cavabı*** *mətndə bir yerdə istifadə olunmuş "****negativ****" sözüdür.*

**28.** Welches Wort aus dem Text entspricht der Definition "*etwas, was jemandem vorgeschlagen wird*"?
**Alt-standart:** 6 – 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir.
**İzah:** *Açıq tipli bu test tapşırığında „kiməsə nəyinsə təklif olunanması" kimi izahı verilmiş sözü mətndə tapmaq tələb olunur. Tapşırıqda verilmiş izaha mətndəki „****das Angebot****" sözü uyğun gəlir.*

**29.** Ergänzen Sie den Satz mit eigenen Wörtern. Verändern Sie mindestens 2 Wörter.
*Allerdings zeigt die Untersuchung auch, dass ... .*
**Alt-standart:** 8 – 3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.
**İzah:** *Bu test tapşırığında mətnə əsasən verilmiş fikri ən azı iki sözü dəyişməklə tamamlamaq tələb olunur. Mətnə əsasən bu fikri „* ***... die Leute heute auf ihre Essen achten****" şəklində tamamlamaq mümkündür.*

**30.** Beantworten Sie die Frage und äußern Sie Ihre Meinung mindestens mit 3 Sätzen.
*Was kann passieren, wenn man sich ungesund ernährt?*
**Alt-standart:** 7 – 4.1.2. Müxtəlif əşya və hadisələri təsvir edir. 9 – 4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır. 10 – 4.1.3. Cümlələri və abzasları düzgün əlaqələndirmək üçün bağlayıcı vasitələrdən istifadə edir. 11 – 3.1.4. Mətndəki fakt və hadisələri real həyatla əlaqələndirərək şərh edir.
**İzah:** *Bu açıq tipli suala öz fikrini ifadə etməklə ən azı üç cümlə ilə cavab yazmaq tələb olunur. Cavab yazarkən birləşdirici vasitələrin köməyi ilə fikirləri əlaqəli və ardıcıl şəkildə ifadə etmək, fikirlər arasında məntiqi rabitəni təmin etmək, müxtəlif qrammatik forma və strukturlardan (sadə və mürəkkəb cümlələr) düzgün və yerində istifadə etməklə zaman uzlaşmasını gözləmək və mövzuya uyğun söz və söz birləşmələrini yerində və düzgün şəkildə istifadə etmək tələb olunur. Bu suala nümunə cavab aşağıdakı kimi ola bilər:*
***Wenn man sich ungesund ernährt, kann man krank werden. Man kann zum Beispiel Übergewicht bekommen oder Probleme mit dem Herzen haben. Eine schlechte Ernährung kann auch die Zähne und die allgemeine Gesundheit schädigen.***

# Rus dili (xarici dil kimi)

***Прослушайте текст и выполните задания 1 – 6.***

Amazon – крупнейшая в мире компания, продающая товары и услуги через Интернет. Она была основана в 1994 году американским предпринимателем Джеффом Безосом. Благодаря компании Amazon, этот бизнесмен стал одним из богатейших людей планеты. Фирма была названа в честь реки Амазонки. Штаб-квартира компании находится в штате Вашингтон, в городе Сиэтле.

Amazon начинал работу как интернет-магазин. Изначально на его сайте продавались только книги. Позже магазин начал продавать музыкальные диски и различную видеопродукцию. За годы своей деятельности Amazon вырос в технологического гиганта. Компания известна продажей электроники, в том числе собственного производства. В наши дни Amazon также продаёт бытовую технику, мебель, одежду и обувь, товары для дома, пищевые продукты, игрушки и многое другое. У Amazon есть собственная киностудия, которая занимается производством фильмов и сериалов.

Компания имеет филиалы во многих странах мира: в Австралии, Канаде, Великобритании и в Германии. В наше время в Amazon работает более миллиона человек. Компания использует роботов, которые контролируют работу сотрудников и их производительность. Сегодня Amazon входит в десятку крупнейших компаний мира.

**1.** Определите основную мысль текста.
A) Продажа дисков и различной видеопродукции.
B) Использование роботов в компании для контроля работы сотрудников.
C) Основатель компании – один из богатейших людей планеты.
D) Компания названа в честь реки Амазонки.
E) Amazon – компания по продаже товаров и услуг через Интернет.

**Alt-standart:** 7-1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyən edir.
**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada mətnin əsas fikrini müəyyən etmək tələb olunur. Bəndlərdə verilən* ***"Продажа дисков и различной видеопродукции"*** *(Disk və müxtəlif videoməhsulların satışı),* ***"Использование роботов в компании для контроля работы сотрудников"*** *(Əməkdaşların işinin nəzarəti üçün şirkətdə robotların istifadəsi),* ***"Основатель компании – один из богатейших людей планеты"*** *(Şirkətin təsisçisi planetimizin zəngin insanlarından biridir) və* ***"Компания названа в честь реки Амазонки"*** *(Şirkət Amazonka çayının şərəfinə adlandırılmışdır) fikirləri barədə mətndə məlumat verilsə də, mətnin əsas fikri Amazon internet üzərindən mal və xidmətlərinin satışı üzrə şirkətdir. Bu səbəbdən də, test tapşırığının* ***doğru cavabı*** *"Amazon – компания по продаже товаров и услуг через Интернет" olan bənddir.*

**2.** Укажите ***неверное*** утверждение по тексту.
A) Компания Amazon была основана в 1894 году.
B) Компании Amazon принадлежит киностудия.
C) Во многих странах Amazon имеет свои филиалы.
D) Сегодня компания продаёт электронику собственного производства.
E) За годы своего существования Amazon вырос в технологического гиганта.

**Alt-standart: 10-1.1.2.** Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır.
**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir və mətnə əsasən* ***yanlış fikri*** *seçmək tələb olunur. Verilən fikirlərdən biri "****Компании Amazon принадлежит киностудия****" sualın doğru cavabı deyil, çünki mətnə əsasən Amazon şirkətinə kinostudiya məxsusdur." "****Во многих странах Amazon имеет свои филиалы****" fikri də sualın doğru cavabı deyil, çünki mətnə əsasən Şirkətinin filialları bir çox ölkələrdə var. Digər bənddə də fikir sualın doğru cavabı deyil: "****Сегодня компания продаёт электронику собственного производства****". Mətnə əsasən şirkət öz istehsalı olan malları satır, həmçinin də "****За годы своего существования Amazon вырос в технологического гиганта****" fikri olan bənd də tapşırığa əsasən doğru cavab deyil. Amazon öz mövcudluğu illərində texnoloji nəhəngə çevrilmişdir. Beləliklə,* ***"Компания Amazon была основана в 1894 году"*** *fikri mətnə əsasən düzgün deyil, çünki mətnə şirkət 1994-cü ildə təsis olunmuşdur. Beləliklə, test tapşırığının doğru cavabı "****Компания Amazon была основана в 1894 году****" olan bənddir.*

**3.** Определите верный ответ на вопрос.
*Что изначально продавалось на сайте интернет-магазина Amazon?*
A) Пищевые продукты.
B) Бытовая техника.
C) Только книги.
D) Товары для дома.
E) Одежда и обувь.
**Alt-standart:** 6-1.1.2. Dinlədiyi mətndəki yeni informasiyanı müəyyən edir.
**İzah:** *Burada verilmiş suala "Что изначально продавалось на сайте интернет-магазина Amazon?" (Amazon internet mağazasında əvvəlcədən yalnız kitablar satılırdı?) mətnə əsasən cavab yazmaq tələb olunur. Sualın doğru cavabı dinləmə mətnində* ***"Изначально на его сайте продавались только книги"*** *cümləsində verilmişdir. Digər bəndlərdə "****Пищевые продукты"*** *(qida məhsulları),* ***"Бытовая техника (məişət texnikası), "Товары для дома"*** *(ev üçün mallar)* və ***"Одежда и обувь****" (geyim və ayaqqabı) verilənlərin satışı ilə şirkət sonralar məşğul oldu. Beləliklə, test tapşırığının* ***doğru cavabı "Только книги"*** *olan bənddir.*

***Выполните задания номер 4 – 6 на "Листе ответов".***

**4.** Дополните предложение словами из текста.
*В наше время в компании Amazon работает ... .*
**Alt-standart:** 10-1.1.2. Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır.
**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş cümləni dinləmə mətninə əsasən tamamlamaq tələb olunur. Bu yarımçıq cümlə mətndə "****В наше время в Amazon работает более миллиона человек****" (Hal-hazırda Amazon şirkətində bir milliondan artıq insan çalışır) kimi verilmişdir. Buna görə də test tapşırığının* ***doğru cavabı "более миллиона человек"****-dir.*

**5.** Напишите ответ на вопрос «*Где находится штаб-квартира компании Amazon?*».
**Alt-standart:** 6-1.1.1. Müraciətlər zamanı sualları cavablandırır.
**İzah:** *Bu test tapşırığı dinləmə mətninə aiddir. Burada verilmiş suala mətnə əsasən cavab yazmaq tələb olunur. Sualın cavabı mətndə "Штаб-квартира компании находится в штате Вашингтон, в городе Сиэтле" (Şirkətin qərargahı Vaşinqton ştatının Sietl şəhərində yerləşir) cümləsində öz əksini tapmışdır. Beləliklə, "Штаб-квартира компании находится в штате Вашингтон, в городе Сиэтле"test tapşırığının* ***doğru cavabıdır.***

**6.** Напишите одно прилагательное из текста, которое характеризует слово «*киностудия*».
**Alt-standart:** 7-1.1.1. Müraciətlərə uyğun tapşırıqları icra edir.
**İzah:** *Bu test tapşırığında "****киностудия****" (kinostudiya) ismini təyin edən sifəti yazmaq tələb olunur. Mətndə verilmiş "****У Amazon есть собственная киностудия, которая занимается производством фильмов и сериалов****" (Amazonun film və seriallar istehsalı ilə məşğul olan xüsusi kinostudiyası var) cümləsinə əsasən, test tapşırığının* ***doğru cavabı*** *"собственная" (xüsusi, şəxsi, özəl) sifətidir.*

**7.** Ответьте на вопрос.
*– Кому ты обещал принести новые книги?*
A) Своих друзей.
B) К своим друзьям.
C) Своими друзьями.
D) Своим друзьям.
E) У своих друзей.
**Alt-standart:** 5-1.1.1. Müraciətlər zamanı sadə sualları cavablandırır.
**Bölmə**: Dialoq.
**İzah:** *Bu test tapşırığında dialoqu qurmaq üçün "****Кому ты обещал принести новые книги****" (Sən kimə yeni kitabları gətirməyi söz vermisən?) sualına cavab vermək lazımdır. "****Своих друзей****" (Öz dostlarımı), "****К своим друзьям****"(Öz dostlarım olan yerə), "****Своими друзьями****" (Öz dostlarımla) və "****У своих друзей****" (Öz dostlarım olan yerdə) fikirləri verilmiş sualın cavabı deyil. Sualın cavabı "****Своим друзьям****" (öz dostlarıma) cümləsidir. Beləliklə, test tapşırığının* ***doğru cavabı "Своим друзьям"*** *olan bənddir.*

**8.** В каких словах пропущена одна и та же буква?
1. увл...чение, в...селье
2. з...мля, л...цо
3. д...ревья, гр...бы
4. м...ря, ст...рик
5. г...ра, в...лна

A) 3, 4 B) 1, 5 C) 2, 4 D) 2, 5 E) 1, 3

**Alt-standart:** 6-4.1.3. Sözləri orfoqrafiya qaydalarına uyğun yazır.
**Bölmə**: Orfoqrafiya
**İzah:** *Bu test tapşırığında orfoqrafiya qaydalarına uyğun olaraq eyni hərflərin buraxıldığı cərgəni müəyyən etmək tələb olunur. "****увл...чение, в...селье****" sözlərində "е" hərfi; "****з...мля, л...цо****" – müvafiq olaraq "е" və "и";* ***д...ревья, гр...бы*** *– müvafiq olaraq "е" və "и"; "****м...ря, ст...рик****" – müvafiq olaraq "о" və "а"; "****г...ра, в...лна****"* sözlərində isə "о" həfi yazılmalıdır. Hər bir sözün

yazılmasını eyniköklü sözlə yoxlamq olar. *Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *1 ve 5 olan bənddir.*

**9.** Укажите антоним к слову *сильный.*
A) глупый B) слабый C) свежий
D) тонкий E) большой
**Alt-standart:** 6-3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir.
**Bölmə**: Leksikologiya (Antonimlər)
**İzah:** *Bu test tapşırığında "сильный" sözünə antonim seçmək tələb olunur. Verilmiş "****глупый****" – ağ ılsız, səfeh, "****свежий****" – təzə, tər "****тонкий****" – nazik, incə, "****большой****" – böyük, iri sözlər "****сильный****" (güclü, bərk) sözünün antonimi ola bilməz. Bu səbəbdən də, test tapşırığının* ***doğru cavabı*** *"****слабый****" – zəif, gücsüz, olan bənddir.*

**10.** Написание и произношение какого слова совпадают?
A) олень
B) закон
C) мороз
D) автомобиль
E) четверг
**Alt-standart:** 5-3.1.2. Sözləri düzgün tələffüzlə oxuyur.
**Bölmə**: Fonetika. Orfoepiya.
**İzah:** *Bu test tapşırığında verilmiş sözlərdən hansında yazı və tələffüz üst-üstə düşməsini müəyyən etmək tələb olunur. "****Олень****" - [ал'эн'], "****мороз****" [марос], "****автомобиль****" - [афтамаб'ил'] "****четверг****" - [ч'итв'эрк] sözlərinin tələffüz və yazılışında fərqlər müşahidə olunur. "*Закон*" - [*закон*] sözünün isə yazılışı ilə tələffüzü fərqlənmir. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *"закон" olan bənddir.*

**11.** Выберите правильный ответ.
*... наши дни ... русском языке говорят более 150 миллионов человек в разных странах мира.*
A) На, в B) За, по C) В, за
D) В, на E) На, на
**Alt-standart:** *8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.*
**Bölmə:** Sözönü
**İzah:** *Bu test tapşırığında verilmiş cümlədə buraxılmış sözönülərini əlavə etməklə cümləni tamamlamaq tələb olunur.* ***"… наши дни … русском языке говорят более 150 миллионов человек в разных странах мира****" cümləsini tamamlamaq üçün sözönülərindən sonra gələn sözlərə müvafiq olaraq когда? – təsirlik hal (В наши дни) və на чём? – yerlik hal (на языке) sualları vermək lazımdır. Bu zaman hala görə* ***"в"*** və ***"на"*** *sözönülərinin işlənməsi məqsədəuyğundur. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *"****в, на****" sözönüləri olan* ***bənddir***.

**12.** Выберите правильный ответ.
*Раньше мне ... детективы, я часто их ... .*
A) нравятся, прочитал
B) понравились, почитал
C) нравятся, читал
D) нравились, почитал
E) нравились, читал
**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə:** Qrammatika, sözün formaları
**İzah:** *Bu test tapşırığında "****Раньше мне ... детективы, я часто их ...*** *." uyğun gələn feil formalarını müəyyən etmək tələb olunur. Keçmiş zamandan söhbət getdiyi üçün (раньше) isimdən (детективы) öncə gələn feil cəmdə, bitməmiş hərəkət bildirən formada olmalıdır* (нравились*); mürəkkəb cümlənin ikinci hissəsində feil "я" əvəzliyinə görə təkdə, birinci feilə uyğun olaraq keçmiş zamanın bitməmiş hərəkət bildirən formasında olmalıdır (*читал*). Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *"нравились, читал" olan bənddir.*

**13.** Дополните логический ряд.
*Лицей, школа, колледж, ... .*
A) дом
B) книга
C) стадион
D) гимназия
E) библиотека
**Alt-standart:** 5-3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir.
**Bölmə**: Məntiq
**İzah:** *Bu test tapşırığında verilmiş sözləri məntiqi ardıcıllıqla tamamlamaq tələb olunur. "****Лицей, школа, колледж****" (lisey, məktəb, kollec) sözlərin leksik mənalarına nəzər saldıqda, onların tədris müəssisələrinə aid olduğunu görürük. Verilmiş sözlər "****дом****" (ev), "****книга****" (kitab), "****стадион****" (stadion), "****библиотека****" (kitabxana) bu cərgəni tamamlaya bilməz. Cərgənin məntiqi ardıcıllığını "****гимназия****" (gimnaziya) sözü tamamlaya bilir. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *"*гимназия*" olan bənddir.*

**14.** В каком ряду выделенные слова употреблены в переносном значении?
A) *тяжёлый* воздух, *тяжёлый* рюкзак
B) *холодное* сердце, *холодный* чай
C) *стеклянный* взгляд, *стеклянная* чашка
D) *железный* гвоздь, *железное* здоровье
E) *глубокий* сон, *глубокое* чувство
**Alt-standart:** 6-3.1.1. Söz və ifadələri leksik-semantik mənasını fərqləndirir.
**Bölmə**: Leksika. Sözlərin mənası.
**İzah:** *Bu test tapşırığında kursiv ilə verilmiş sözlərin məcazi mənada istifadə olunduğu cərgəni seçmək tələb olunur. "****Тяжёлый*** **воздух,** ***тяжёлый*** **рюкзак***" (ağır hava, ağır çanta) – müvafiq olaraq biri məcazi, digəri isə həqiqi mənada verilmişdir; "****холодное*** **сердце,** ***холодный*** **чай***" (soyuq ürək, soyuq çay) – müvafiq olaraq biri məcazi, digəri isə həqiqi mənada; "****стеклянный*** **взгляд,** ***стеклянная*** **чашка***" (şüşə baxış, şüşə fincan) – müvafiq olaraq biri məcazi, digəri isə həqiqi mənada; "****железный*** **гвоздь,** ***железное*** **здоровье***" (dəmir mismar, dəmir kimi möhkəm sağlamlıq) – müvafiq olaraq biri həqiqi, digəri isə məcazi mənada; "****глубокий*** **сон,** ***глубокое*** **чувство**" *(dərin yuxu, dərin hiss) söz birləşmələrinin hər ikisi məcazi mənada işlənmişdir. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *"глубокий* сон, *глубокое* чувство" *olan bənddir.*

**15.** Дополните предложение.
*У меня было ... времени для ... объявления.*
A) немного, составления
B) лучше, конец
C) большие, написания
D) небольшой, начала
E) меньше, решение
**Alt-standart:** 6-3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir; 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Cümlənin mənaca tamamlanması
**İzah:** *Bu test tapşırığında verilmiş cümləni tamamlamaq üçün müvafiq sözləri seçmək tələb olunur. Verilmiş cümləni: "**У меня было … времени для … объявления**" leksik-qrammatik cəhətdən "**немного, составления**" sözlərilə tamamlaya bilərik: "У меня было **немного** времени для **составления** объявления". Digər bəndlərdə verilən sözlər leksik-qrammatik cəhətdən həmin cümlədə işlənə bilməz. Beləliklə, test tapşırığının **doğru cavabı** "немного, составления" ardıcıllığı olan bənddir.*

**16.** Укажите верное объяснение слова.
A) оазис – место в пустыне, где нет растений и воды
B) конверт – большая почтовая посылка
C) аксиома – положение, которое нуждается в доказательстве
D) аудитория – место для продажи книг
E) традиция – то, что перешло от одного поколения к другому
**Alt-standart:** 6-3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir
**Bölmə**: Leksika. Sözlərin izahı
**İzah:** *Bu test tapşırığında leksik mənası düzgün verilən sözü müəyyən etmək tələb olunur. "**Оазис – место в пустыне, где нет растений и воды**" – vahə məhz səhrada su və bitkinin olan yeridir, burada isə vahə səhrada sussuz və bitkisiz yer kimi verilib. "**Конверт – большая почтовая посылка**" – zərf məktub üçün xüsusi biçimli kaqız qabdır, lakin burada böyük poçt bağlaması kimi verilib. "**Аксиома – положение, которое нуждается в доказательстве**" – aksioma isbata ehtiyacı olmayan müddəadır, burda isə isbata ehtiyacı olan müddəa kimi verilib. "**Аудитория – место для продажи книг**" – auditoriya mühazirə, məruzə oxunan otaqdır, lakin burada kitab satılan məkan kimi verilib. "**Традиция – то, что перешло от одного поколения к другому**" - ənənə - bir nəsildən digər nəsilə keçənlər, sözünün mənası düzgün verilmişdir. Beləliklə, test tapşırığının **doğru cavabı*** "традиция – то, что перешло от одного поколения к другому" *olan bənddir.*

**17.** Слово *весёлые* отвечает на вопрос
A) какой?
B) каким?
C) какие?
D) каких?
E) какими?
**Alt-standart:** 8-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Nitq hissələri və onlara verilən suallar
**İzah:** *Bu test tapşırığında "весёлые" (şən) sözü hansı sual cavab verdiyin müəyyən etmək tələb olunur. "Весёлые" sifəti adlıq halın cəm formasında verildiyi üçün* "какие?" *(necə?) sualına cavab verir. Digər suallar başqa halların sualları olduğu üçün "весёлые" sifətinə verilə bilməz. Beləliklə, test tapşırığının **doğru cavabı*** "какие?" *qeyd olunduğu bənddir.*

**18.** Выберите правильный ответ.
*Олимпийский чемпион рассказал детям о сво... побед... .*
A) -им; -ах B) -и; -ы C) -их; -ах
D) -им; -ам E) -ими; -ами
**Alt-standart:** 8-3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.
**Bölmə**: Qrammatika (hal şəkilçiləri)
**İzah:** *Bu test tapşırığında verilmiş sözləri tamamlamaq üçün müvafiq şəkilçiləri seçmək tələb olunur. "Олимпийский чемпион рассказал детям о сво... побед..." cümləsində "**о сво... побед...**" "**побед...**" ismi qadın cinsli, cəmdə və yerlik halda olduğu üçün "**-ах**" (победах); "**о сво...**" mənsubiyyət əvəzliyi də "победах" sözü uzlaşaraq qadın cinsli, cəmdə və yerlik halda işləndiyi üçün "**их**" şəkilçisini qəbul edir. Digər şəkilçilər bu hal ilə işlənilmir. Beləliklə, test tapşırığının **doğru cavabı** "**-их**; **-ах**" ardıcıllığı olan bənddir.*

**19.** Сколько слов сочетается со словом *скульптор*?
*Известный, глобальный, талантливый, учебный, молодой, великий*
A) 2 B) 6 C) 5 D) 4 E) 3
**Alt-standart:** 6-3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir.
**Bölmə**: Leksika. Sözlərin uyğunlaşması
**İzah:** *Bu test tapşırığında "**скульптор**" sözünün işlənə bildiyi sifətlərin sayını müəyyən etmək tələb olunur. Verilmiş sözlərə nəzər saldıqda görürük ki, "**известный**" (məşhur), "**талантливый**" (istedadlı), "**молодой**" (cavan) və "**великий**" (böyük) sifətləri "**скульптор**" (heykəltəraş) sözü ilə işlənə bilər. "**Глобальный**" (qlobal), "**учебный**" (tədris) sözləri isə "**скульптор**" sözü ilə istifadə edilə bilməz. Beləliklə, test tapşırığının **doğru cavabı** "4" olan bənddir.*

**20.** Укажите логически верный ответ.
*Это учреждение работает каждый день, кроме воскресенья, с 9.00 до 18.00 часов.*
A) Учреждение работает ежедневно.
B) Это учреждение работает по воскресеньям.
C) Учреждение работает только до обеда.
D) Это учреждение работает шесть дней в неделю.
E) Это учреждение работает с 18.00 часов.
**Alt-standart:** 6-3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir
**Bölmə**: Məntiq
**İzah:** *Bu test tapşırığında verilmiş cümləyə "**Это учреждение работает каждый день, кроме воскресенья, с 9.00 до 18.00 часов**" (Bu müəssisə bazar günündən başqa, 09:00-dan 18:00 kimi hər gün işləyir) leksik-semantik mənasına əsasən uyğun olan cümləni seçmək tələb olunur. "**Учреждение работает ежедневно**" (Müəssisə hər gün işləyir), "**Это учреждение работает по воскресеньям**" (Bu müəssisə bazar günləri işləyir), "**Учреждение работает только до обеда"** (Müəssisə yalnız nahar vaxtına qədər işləyir), "**Это учреждение работает с 18.00 часов**" (Bu müəssisə 18:00 dan işləyir) bəndləri*

*məntiqi baxımdan verilmiş cümləyə uyğun deyil. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *“**Это учреждение работает шесть дней в неделю**” (Bu müəssisə həftədə altı gün işləyir) cümləsi olan bənddir.*

**21.** Укажите синоним слова *красиво.*

A) тревожно B) мрачно C) прекрасно
D) успешно E) честно

**Alt-standart:** 6-3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir

**Bölmə:** Sinonimlər

**İzah:** *Bu test tapşırığında verilmiş “**красиво**” sözünün sinonimini müəyyən etmək tələb olunur. Burada verilmiş sözlər zərflərlə ifadə olunmuşdur. Bu zərflər içərisindən “*тревожно*” – həyəcanlı, qorxulu, “**мрачно**” - tutqun, qaşqabaqlı, “**успешно**” – uğurlu, müvəffəqiyyətli* və *“**честно**” – şərəflə, vicdanla mənalarını verir. “**Прекрасно**” (çox gözəl) zərfi isə “**красиво**” (gözəl) sözünün sinonimidir. Digər cütlüklərdə olan sözlər isə müxtəlif mənaları ifadə edir. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *“прекрасно” olan bənddir.*

**22.** Составьте текст.

1. Он написал первую национальную лирико-психологическую оперу “Севиль”.
2. Ф. Амиров внёс огромный вклад в музыкальное искусство нашей страны.
3. За его создание он получил Государственную премию.
4. Всенародную популярность завоевал балет композитора “Тысяча и одна ночь”.

A) 4, 3, 2, 1 B) 3, 4, 1, 2 C) 4, 1, 2, 3
D) 2, 3, 1, 4 E) 2, 1, 4, 3

**Alt-standart:** 7-3.1.3. Mətnin tərkib hissələri arasındakı məntiqi ardıcılığı müəyyən edir.

**Bölmə**: Sintaksis

**İzah:** *Bu test tapşırığında verilmiş cümlələrin arasındakı məntiqi ardıcıllığı müəyyən etməklə mətni qurmaq tələb olunur. Verilmiş cümlələrə nəzər saldıqda “**Ф. Амиров внёс огромный вклад в музыкальное искусство нашей страны**” (F.Əmirov ölkəmizin müsiqi yaradıcılığına böyük tövhəsini vermişdir) cümləsinin birinci işlənilməsi məqsədəuyğun sayılır. Daha sonra “**Он написал первую национальную лирико-психологическую оперу “Севиль”** (O, “Sevil” ilk milli liriko-psixoloji operasını yazmışdır); **“Всенародную популярность завоевал балет композитора “Тысяча и одна ночь”** (Bəstəkarın “Min bir gecə” baleti ümumxalq populyarığı qazanmışdlr)* ***və “За его создание он получил Государственную премию****” (Onu yaratdığına görə o Dövlət mükafatını almışdır) cümlələrin verilməsi düzgün olardı. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *2, 1, 4, 3 ardıcıllığı olan bənddir.*

***Прочитайте текст и выполните задания 23 – 30.***

**1.** Древнее Набатейское государство существовало в III веке до нашей эры. Оно было образовано группой арабских племён – набатеями. Столицей этого государства была Петра. В переводе с греческого языка Петра означает «скала». Народ Набатеи вокруг горы построил в скалах дома из красного камня. В зависимости от попадания света меняется цвет камней в постройках. Благодаря этой особенности сегодня город называют «розовой жемчужиной».

**2.** Петра, как столица Набатеи, процветала во многом благодаря удачному расположению и оригинальным видам построек. Город был главным торговым центром. Он находился на пересечении двух важных торговых путей, идущих через пустыню. Путешественники часто останавливались здесь для отдыха. Но постепенно, после открытия морских путей на Восток, число торговцев, идущих через Петру, уменьшилось. Город был оставлен жителями, а затем и забыт, так что его даже не было на картах. Позже он затерялся в песках. Сейчас эта местность находится на территории Иордании.

**3.** В 1812 году Петра была случайно обнаружена швейцарским исследователем и путешественником Иоганном Буркхардтом. А в 2007 году этот город признали новым чудом света. Сейчас Петра – археологический заповедник и музей под открытым небом. Миллионы туристов приезжают сюда, чтобы увидеть это чудо своими глазами.

**23.** Какое утверждение ***не соответствует*** содержанию текста?

A) Множество туристов приезжают, чтобы увидеть город.
B) Название города происходит от греческого слова «скала».
C) Столицей древнего Набатейского государства был город Петра.
D) Дома в Петре были построены в скалах.
E) Число торговцев в Петре увеличилось после открытия восточных морских путей.

**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.

**İzah:** *Bu test tapşırığında mətnə əsasən verilmiş yanlış fikri təyin etmək tələb olunur. Bəndlərdə qeyd olunan “**Множество туристов приезжают, чтобы увидеть город**” (Şəhəri görmək üçün çoxlu turist gəlir), “**Название города происходит от греческого слова «скала»**” (Şəhərin adı “qaya” yunan sözündən əmələ gəlib), “**Столицей древнего Набатейского государства был город Петра**” (Qədim Nabati dövlətinin paytaxtı Petra şəhəri idi) və “**Дома в Петре были построены в скалах**” (Petrada evlər qayalarda tikilmişdir) fikirləri mətndə verilmişdir. **“Число торговцев в Петре увеличилось после открытия восточных морских путей”** fikri isə yanlışdır, çünki mətnə əsasən Şərq dəniz yollarının açılması ilə əlaqədar Petrada tacirlərin sayı azalmışdır. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *“Число торговцев в Петре увеличилось после открытия восточных морских путей” olan bənddir.*

**24.** Укажите правильный ответ на вопрос.

*Что произошло в начале XIX века*?

A) Город был признан чудом света.
B) Петра стала важным торговым центром.
C) Был обнаружен город Петра.
D) Петра стала столицей Иордании.
E) Город стал музеем под открытым небом.

**Alt-standart:** 5-3.1.4. Mətnin məzmununa uyğun suallara cavab verir.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir. Mətnə əsasən verilən sualın doğru cavabını tapmaq tələb olunur. Verilmiş sualda XIX əsrin əvvəlində nə baş verildiyi soruşulur. Mətndə bu sualın cavabı* ***"В 1812 году Петра была случайно обнаружена швейцарским исследователем и путешественником Иоганном Буркхардтом"*** *(1812-ci ildə Petra şəhəri təsadüfən isveçrə səyyahı və tədqiqatçısı İohann Burkxardt tərəfindən aşkar olunmuşdur) cümləsində verilmişdir. Digər bəndlərdə verilən fikirlər mətndə yer alsa da, XIX əsrin əvvəlirinə təsadüf etmitr. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *"Был обнаружен город Петра" olan bənddir.*

**25.** Укажите основную мысль текста.
A) История древнего города Петра.
B) Удачное расположение Петры.
C) Обнаружение древнего города.
D) Племена, жившие в III веке до нашей эры.
E) Процветание Набатейского государства.
**Standart:** 7-3.1.4. Mətndəki əsas fikri müəyyən edir.
**Alt-standart:** 7-3.1.4. Mətndəki əsas fikri müəyyən edir.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və mətnin əsasən nədən bəhs etdiyi soruşulur. Verilmiş variantlardan "**Удачное расположение Петры**" (Petranın uğurlu yerləşməsi), "**Обнаружение древнего города**", (Qədim şəhərin aşkar edilməsi), "**Племена, жившие в III веке до нашей эры**" (Eramızdan əvvəl II əsrdə yaşayan tayfalar) və "**Процветание Набатейского государства**" (Nabateya dövlətinin çiçəklənməsi) fikirləri mətndə verilsə də, mətnin əsas məzmununu ifadə etmirlər. Mətndə, əsasən, qədim Pertra şəhərinin tarixindən bəhs edildiyi üçün test tapşırığının* ***doğru cavabı*** *"История древнего города Петра" olan bənddir.*

**26.** Дополните предложение информацией из текста.
*Древний город называют «розовой жемчужиной», потому что … .*
A) создавался группой арабских племён
B) камни в построенных домах меняют цвет
C) здесь часто останавливались для отдыха
D) он находится на территории Иордании
E) располагался на пересечении двух путей
**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir. Mətnə əsasən cümlənin düzgün sonluğunu müəyyən etmək tələb olunur. Verilmiş yarımçıq cümləni tamamlamaq üçün mətnin I abzasına nəzər yetirmək lazımdır:* ***"В зависимости от попадания света меняется цвет камней в постройках. Благодаря этой особенности сегодня город называют «розовой жемчужиной»".*** *Buradan aydın olur ki, Qədim şəhəri evlərin rənginin işığın düşməsi nəticəsində dəyişilməsinə görə "çəhrayi inci" adlandırdılar. Digər bəndlərdə: "**создавался группой арабских племён**" (ərəb tayfaları tərəfindən yaradılmışdır); "**здесь часто останавливались для отдыха**" (Burada tez-tez istirahət etmək üçün dayanırdılar); "**он находится на территории Иордании**" (O İordaniya ərazisində yerləşirdi); "**располагался на пересечении двух путей**" (İki yol ayrıcında yerləşirdi) – mətndə bütün bu məqamlar yer almışdır, lakin qədim şəhər "çəhrayi inci" adlandırılmasına səbəb deyildi. Beləliklə, test tapşırığının* ***doğru cavabı*** *"камни в построенных домах меняют цвет" olan bənddir.*

***Выполните задания номер 27 – 30 на "Листе ответов".***

**27.** Выпишите из 1-го абзаца текста синоним слова «*старинный*».
**Alt-standart:** 6-3.1.1. Söz və ifadələri leksik-semantik mənasını fərqləndirir.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada "старинный" sözünün mətndəki sinonimini tapıb yazmaq tələb olunur. Bu test tapşırığının* ***doğru cavabı*** *"древний" sözüdür.*

**28.** Выпишите из 3-го абзаца текста слово, которое означает «*всё необычное, что вызывает удивление*».
**Alt-standart:** 5- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada izahı verilmiş sözü mətndə tapıb, yazmaq tələb olunur. Test tapşırığının* ***doğru cavabı*** *"чудо" sözüdür.*

**29.** Дополните предложение информацией из текста, заменив в ответе не менее двух слов.
*Петра, как столица Набатеи, процветала … .*
**Standart:** 8- 3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır; 9-3.1.4. Oxuduğu mətnin məzmununa münasibət bildirir.
**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada verilmiş cümləni mətnə əsasən ən azı 2 sözü dəyişməklə tamamlamaq tələb olunur. Verilmiş cümləni "из-за хорошего месторасположения и уникальных форм домов; из-за выгодного местонахождения и необычных видов домов" şəklində tamamlamaq mümkündür.*

**30.** Ответьте на вопрос, выразив своё мнение не менее чем в 3-х предложениях.
*Любите ли вы путешествовать и почему?*
**Standart:** 7- 4.1.2. Müxtəlif əşya və hadisələri təsvir edir. 9-4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır. 10-4.1.3. Cümlələri və abzasları düzgün əlaqələndirmək üçün bağlayıcı vasitələrdən istifadə edir.
**İzah:** *Bu açıq tipli suala öz fikrini ifadə etməklə ən azı üç cümlə ilə cavab yazmaq tələb olunur. Cavab yazarkən birləşdirici vasitələrin köməyi ilə fikirləri əlaqəli və ardıcıl şəkildə ifadə etmək, fikirlər arasında məntiqi rabitəni təmin etmək, müxtəlif qrammatik forma və strukturlardan (sadə və mürəkkəb cümlələr) düzgün və yerində istifadə etməklə zaman uzlaşmasını gözləmək və mövzuya uyğun söz və söz birləşmələrindən yerində və düzgün şəkildə istifadə etmək tələb olunur. Bu suala nümunə cavab aşağıdakı kimi ola bilər:*
***"Моя семья любит путешествовать, потому что это расширяет кругозор. В путешествиях мы заводим новых друзей, знакомимся с культурой и традициями других народов. Также нас интересует история разных городов и стран".***

## Fars dili

### به متن گوش بدهید و تمرینهای 1 – 6 را انجام بدهید.

**1.** در متن صحبت از چه می رود

A) در باره ی شهر مشهد
B) در باره ی تاریخ ایران
C) در باره ی مردم ایران
D) در باره ی" شاهنامه" فردوسی
E) در باره ی آرامگاه فردوسی

**Alt-standart:** 7 – 1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyən edir.
**İzah:** *Dinləyib-anlama bacarığını yoxlayan bu test tapşırığında mətndə söhbətin nədən getdiyi soruşulur. Mətndə Firdovsinin "Şahnamə" əsərindən bəhs edilir. Mətnə əsasən* در باره ی" شاهنامه" فردوسی *fikrinin qeyd olunduğu bənd tapşırığın* ***doğru cavabıdır.***

**2.** مربوط به متن فکر درست را انتخاب کنید

A) فردوسی به تاریخ قدیم ایران علاقه نداشت
B) فردوسی هزار سال پیش زندگی کرده بود
C) فردوسی "شاهنامه" را با سفارش نوشته بود
D) آرامگاه فردوسی در شهر اسفهان است
E) او در شهر مشهد به دنیا آمده و همین جا زندگی کرده بود

**Alt-standart:** 6 – 1.1.1. Müraciət zamanı sualları cavablandır.
**İzah:** *Bu test tapşırığında mətnə əsasən düzgün fikri seçmək tələb olunur. Mətndən aydın olur ki, uzun illər əvvəl,yəni min il bundan əvvəl yaşamışdır.Beləliklə"* فردوسی هزارسال پیش زندگی کرده بود*"bənd tapşırığın* ***doğru cavabıdır.***

**3.** کدام جمله مربوط به متن نیست.

A) فردوسی برای نوشتن این داستانها از مردم ایران یعنی از پیران و جهاندیده گان استفاده کرده است.
B) " شاهنامه" داستانهای زیبائی، مانند داستان "رستم و سهراب"، "بیژن" و غیره دارد.
C) فردوسی برای تمام کردن این کتاب سالهای دراز زحمت کشیده بود.
D) فردوسی یکی از شاعران نامی ایران است
E) در باره ی شاهنامه اثار دیگر نوشته بود

**Alt-standart:** 6 – 1.1.2. Dinlədiyi mətndəki yeni informasiyanı müəyyən edir.
**İzah:** *Bu test tapşırığında dinləmə mətnində verilməyən fikri müəyyən etmək tələb olunur. Mətndə "Şahnamə"haqqında başqa əsərlərin yazılmasına dair heç bir məlumat verilmir. Buna əsasən tapşırığın* ***doğru cavabı"*** درباره ی شاهنامه اثار دیگر نوشته بود *fikrinin qeyd olunduğu bənddir.*

***4-6 saylı tapşırıqları "Cavab vərəqləri"ndə yerinə yetirin.***

**4.** جمله زیر را از متن استفاده کرده پر کنید.
